BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE
BAKI BEYNƏLXALQ MULTİKULTURALİZM MƏRKƏZİ

## Nəsiman Yaqublu

# POLYAKLARIN AZƏRBAYCANDA FƏALİYYƏTİ

BAKI BEYNƏLXALQ MULTİKULTURALİZM MƏRKƏZİ
BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE

Nəsiman Yaqublu

# Polyakların Azərbaycanda fəaliyyəti

Bakı 2021

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi**

*Layihə rəhbəri:* **Kamal Abdulla**
*Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilər Şurasının sədri, Azərbaycan Dillər Universitetinin rektoru, Xalq yazıçısı, akademik*

*Layihəyə məsul:* **Rəvan Həsənov**
*Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru*

*Redaktor:* **İradə Quliyeva**

*Korrektor:* **Nəzakət Muradova**

***Müəllif kitabın nəşri ilə bağlı əməkdaşlığa görə Polşa Respublikasının Azərbaycandakı Səfirliyinə təşəkkürünü bildirir.***

**Nəsiman Yaqublu. Polyakların Azərbaycanda fəaliyyəti.**
Bakı, Mütərcim, 2021. 144 səh.

*Kitabda Azərbaycanda yaşamış polyakların XIX əsrin sonu, XX əsrin əvvəllərində və Azərbaycan Xalq Cümhuriyyəti dövründəki (1918-1920) fəaliyyəti araşdırılmışdır. Müxtəlif sahələrdə çalışmış polyaklar neft sənayesinin inkişafında və Bakıda tarixi binaların arxitektura quruluşunun formalaşmasında önəmli rol oynamaqla yanaşı, sonradan Azərbaycanın müstəqil dövlət quruculuğu prosesində də yaxından iştirak etmişdilər.*

*Bu kitab ali məktəblərin müəllim və tələbləri, eləcə də araşdırmaçılar üçün ciddi vəsait olmaqla yanaşı, Azərbaycan-Polşa əlaqələrinin və bütövlükdə beynəlxalq əlaqələr sistemimizin də öyrənilməsində əsaslı mənbədir.*

**ISBN 978-9952-28-576-5**

***© Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, 2021***

# Polşa Respublikasının Azərbaycandakı Səfirindən

Çar Rusiyasının, Prussiya krallığının və Avstriya imperiyasının yürütdüyü imperialist siyasət Polşa xalqını uzun müddət ərzində müstəqillik və inkişaf azadlığından məhrum etdi. Məğlubiyyətlə barışmayan və vətəninin azadlığı və inkişafı uğrunda, onun mədəniyyəti və dilinin qorunub saxlanması uğrunda mübarizə aparan polyaklar müxtəlif təqiblərə məruz qalırdılar. Bölgü aparan dövlətlər onların əcdadlarının torpaqlarında yaşamaq imkanını məhdudlaşdırır və bir çox hallarda onları Polşanı işğal edən ölkələrin müxtəlif ərazilərinə sürgün edirdilər.

Beləliklə də, doğma torpaqlarında öz gələcəyini qura bilməyən polyaklar Rusiya İmperiyasının müxtəlif yerlərində yaşamalı olurdular. XIX əsrin ikinci yarısından vətənlərini işğal etmiş çar rejiminə müqavimət göstərən polyaklar daha çox Cənubi Qafqaza sürgün olunurdular. Azərbaycanda yaşayan polyak ailələrinin bu cür köklərinə, əsasən, Bakıda, Şamaxıda, Zaqatalada rast gəlinir.

Bu mürəkkəb vəziyyətə baxmayaraq, Rusiyanın bir çox yerlərində polyaklar müxtəlif istiqamətlərdə fəallıq nümayiş etdirərək öz şəxsi və yerli potensiallarını mədəniyyət, elmi tədqiqatlar, sahibkarlıqda effektiv şəkildə inkişaf etdirirdilər.

Azərbaycan polyakları da bu baxımdan istisna təşkil etmirlər. Onlar Bakıda, xüsusilə də, neft sənayesində, memar-

lıqda, iqtisadiyyatda işləyərək Bakı şəhərinin və ümumilikdə, Azərbaycanın inkişafına öz töhfələrini vermişlər.

Məsələn, Azərbaycan neft sənayesinin inkişafında tanınmış mütəxəssislər – P.Pototski və V.Zqlenitskinin mühüm rolu diqqətəlayiqdir.

Polşalı memarlar – Ploşko, Qoslavski, Skibinski və digərləri Bakının ən gözəl abidələri – "İsmailiyyə" (Azərbaycan Respublikası Elmlər Akademiyasının Rəyasət Heyətinin indiki binası), Bakı Qadınlar Gimnaziyasının (hazırkı Əlyazmalar İnstitutu), H.Z.Tağıyevin sarayının (hazırkı Milli Azərbaycan Tarixi Muzeyi) müəllifləri olmuşlar... Amma Azərbaycan memarlığının polyak sənətkarlarının layihələri əsasında tikilmiş abidələrinin siyahısı bununla bitmir.

Eyni zamanda, Azərbaycan polyakları Bakıda baş vermiş siyasi və sosial dəyişikliklərdən də kənarda qalmayıblar.

Bakıda yaşayan polyaklar müxtəlif təşkilatlar yaradır, öz tarixlərini, mətbuat və mədəniyyətlərini canlandırırlar. 1908-ci ildə Bakıda polyak dilində işıq üzü görmüş "Fariş" jurnalının nəşri də bundan xəbər verir. Birinci dünya müharibəsi dövründə Polşadan olan qaçqınlara Bakıda tanınmış polşalı neftçi S.İ.Rılski tərəfindən yaradılmış Polyak Komitəsi yardım edirdi.

Azərbaycan Demokratik Respublikası dövründə tatar mənşəli polyaklar müstəqil dövlətçiliyin inkişafında mühüm rol oynamışlar. Onların arasında Azərbaycan Ordusunun Baş qərargah rəisi general Maçey Sulkeviç, Ədliyyə nazirinin müavini Olqerd Kriçinski, Nazirlər Şurası dəftərxanasının rəhbəri Leon Kriçinski və digərləri fərqlənmişlər.

Polyak əsilli Stanislav Vonsoviç 1918-ci ilin dekabrında yaradılmış Azərbaycan Parlamentinin deputatı olmuşdur.

Parlamentin iclaslarındakı çıxışlarında S.Vonsoviç həmişə Azərbaycan dövlətçiliyi mövqeyini müdafiə etmişdir.

Həmçinin qeyd etmək lazımdır ki, Polşa dövləti Versal Sülh Konfransı zamanı Azərbaycan nümayəndə heyətinin diplomatik səylərini dəstəkləyərək Azərbaycanın müstəqilliyini tanımış ilk ölkələrdən biri olmuşdur.

Polyakların adlarına Azərbaycanın 1920-ci il bolşevik təcavüzünə qarşı mübarizəsində də rast gəlmək olar. Azərbaycanın sovetlərin işğalı altında olduğu sonrakı illərdə bu ölkədən olan siyasi mühacirlər Polşaya getmiş, orada yaşamış və öz ölkələrinin azadlığı uğrunda Polşa hakimiyyət qüvvələrinin köməyi ilə mübarizə aparmışlar.

Polşa və Azərbaycan xalqlarının müstəqillik uğrunda çəkdiyi iztirablar uzun illər davam edərək 1990-cı illərin əvvəllərində uğurla sona çatır. Azərbaycan müstəqillik qazandıqdan sonra 1991-ci ildə Varşava və Bakı arasında siyasi və iqtisadi münasibətlər, eləcə də təhsil, mədəniyyət və tarix sahəsində əlaqələr fəal inkişaf etməyə başlayır. Bu proses bu gün də davam edir, Polşa-Azərbaycan əlaqələri isə intensiv inkişaf edir.

Bütün bu faktlar təsdiq edir ki, iki xalq və ölkə arasında tarixi təməllərə əsaslanan və uğurlu inkişafa hədəflənmiş qarşılıqlı dostluq münasibətləri mövcuddur.

Bu kitabın dərc edilməsi polyaklar və azərbaycanlılar arasında tarixən formalaşmış dostluq münasibətlərinin tədqiqi üçün ciddi mənbədir. Professor N.Yaqublunun araşdırmasının oxucuları xalqlarımızın qarşılıqlı əlaqələrinin yeni-yeni səhifələrini açmağa stimullaşdıracağına ümid edirik.

**Rafal Poborski**

*Polşa Respublikasının Bakıdakı Fövqəladə və Səlahiyyətli Səfiri*

# AZƏRBAYCAN-POLŞA ƏLAQƏLƏRİ TARİXİNDƏN

Azərbaycanın görkəmli dövlət xadimi M.Ə.Rəsulzadə Azərbaycan-Polşa əlaqələrinin üç başlıca səbəbini göstərirdi: "Azərbaycanın Qafqaz xalqları ailəsinə mənsubluğu, ölkədə yerli türk əhalisinin çoxluğu və nəhayət bu xalqın rus imperializmi tərəfindən əzilməsi".[1]

M.Ə.Rəsulzadə qeyd edirdi ki, azərbaycanlılar Polşanın ən cəsur oğullarının Şamilin qəhrəmanlıq mübarizəsi ilə maraqlandıqları dövrü həmişə xatırlayırlar. Məlum olduğu kimi həmin dövrdə polyaklar Şamilin azadlıq mübarizəsinə artilleriya və topla kömək edirdilər. Polkovnik Teofil Lapinskinin 200 nəfərlik dəstəsi üç il Qafqazın azadlığı uğrunda mübarizə aparmışdılar.

Qeyd olunmalıdır ki, Türkiyənin Polşanın bölünməsi faktını tanımaması da bu xalqın Türk xalqlarına daimi rəğbətinə səbəb olmuşdur.

Rusiya əsarəti altında əzilən xalqlar arasında Azərbaycanın siyasət xadimləri də Polşanın siyasətçiləri ilə ciddi əlaqələr qurmuşdular. Bu əlaqələr daxilində hələ çar Rusiyasının Dövlət Dumasında bizim nümayəndələrlə Polşa təmsilçilərinin münasibətlərini qeyd etmək mümkündür. Eyni zamanda bu əməkdaşlıq o dövrün məşhur "Federalistlər cəmiyyəti"ndə də davam edirdi. Bu cəmiyyəti isə Birinci Dövlət Dumasının

[1] *M.E.Resulzade. Azerbaydzan w walce o niepoleglosc. Azerbaydjanskie wydawnictwo narodowe. Warsawa, 1938, s. 165.*

başqa əyalətlərdən olan nümayəndələri yaratmışdılar. Həmin cəmiyyətin rəyasət heyətində Polşanın tanınmış siyasi xadimi A. Lednitski ilə sonradan Azərbaycan Parlamentinin sədri olan Əlimərdan bəy Topçubaşov əyləşirdi".[2]

M.Ə.Rəsulzadə Bakıda yaşamış polyaklar haqqında yazırdı: "Bakı qarnizonundak çalışan, səhv etmirəmsə familiyası Menjinski olan polyak hərbi həkimi xatırlayıram. Onun yerli əhaliyə qarşı çox səmimi münasibəti vardı. Mənim rəhmətlik atamala, axundla yaxın dostluq münasibətində idi.Atam Menjinski haqqında həmişə deyirdi: "O əsil müsəlman ola bilərdi". Eyni zamanda fizika və riyaziyyat müəllimimiz olan Boyçevskini xatırlayıram. O bizə yalnız fizika və riyaziyyatı öyrətmirdi, həm də rejimə qarşı nifrət yaradır, çar rejiminə qarşı üsyankarlıq ruhu formalaşdırırdı".[3]

Qeyd edək ki, Azərbaycan-Polşa əlaqələri tarixi haqqında ilk mənbələr XV əsrlə bağlıdır. Məhz həmin dövrdən hər iki xalq arasında siyasi münasibətlərə aid yazışmaların əsası qoyulmuşdur.

XVIII əsrdə isə T.Krusinskinin, M.Veçerkovskinin və 1796-cı ildə Qafqaza səyahət etmiş V.Bronevskinin əsərlərində Azərbaycanla bağlı məlumatlar çap edilir.

XIX əsrdən isə hər iki xalq arasında əlaqələrin yeni inkişaf dövrü başlayır. Eyni taleyi yaşayan hər iki xalq (hər ikisinin həmin dövrdə Rusiya tərəfindən işğal edilməsi) ədəbi əlaqələr qurulmasında da fəallıq göstərir.

Tanınmış Polşa şairi A. Mitskeviçin şərq mövzusuna maraq göstərməsində isə tanınmış azərbaycanlı, şərqşünas alim

---

[2] *M. E. Resulzade. Azerbaydzan w walce o niepoleglosc. Azerbaydjanskie wydawnictwo narodowe Warsawa, 1938, s. 165-167.*

[3] *Yenə orada, s. 169.*

Mirzə Cəfər Topçubaşovun tələbəsi A. Xodzkonun xidmətləri az olmamışdır.[4]

Sonradan M. C. Topçubaşov Mitskeviçin şerlərini fars dilinə də tərcümə etmişdir.[5]

Qafqaza sürgün edilmiş polyak şairi Tadeuş Lada Zablotskinin də (1813-1847) yazılarında Azərbaycanla bağlı tədqiq ediləsi faktlar çoxdur. Tanınmış yazıçı Vladislav Stşelnitskinin (1820-1846) "Qafqaz oçerkləri"ndə və "Mahmudbəy" povestində cərəyan edən hadisələrin də başlıca məkanı gözəl Azərbaycan torpaqları olan Lənkəran, Bakı, Şamaxı və Qarabağdır.[6]

İstedadlı Polşa yazıçısı Y. Struşinski də Azərbaycanda olmuş, bu dili öyrənmiş və sonradan özünün "Gülşad" povestini yazıb, 1872-ci ildə nəşr etdirmişdir[7]

Qeyd edək ki, hələ XIX əsrdən başlayaraq Azərbaycanın tanınmış elm və ədəbiyyat xadimləri də Polşaya səfər edir, burada ciddi əlaqələr qururdular. XIX əsrin birinci yarısında Azərbaycanın tanınmış alim və yazıçısı Abbasqulu Ağa Qüdsi Bakıxanov bu sahədə ilk addımı atanlar oldu.[8]

Onun Varşavada olması, tanınmış Polşa şairi T. Zablotski ilə yaradıcılıq əlaqəsi qurması haqqında dəyərli faktlar mövcuddur.[9]

Azərbaycan-Polşa əlaqələrinin formalaşmasında tanınmış Azərbaycan yazıçısı İsmayıl bəy Qutqaşınlının da böyük

---

[4] *Г.Абдуллабекова. Темы и инспирации Азербайджана в Польской литературе XIX века. Баку, "Озан", 1999, с. 186.*

[5] *Yenə orada, c. 38-39.*

[6] *Yenə orada, c. 67.*

[7] *Yenə orada, c. 67.*

[8] *М.Рафили. Первый азербайджанский просветитель Бакиханов. Литературный Азербайджан, 1941, N2, с. 75.*

[9] *Yenə orada, c. 76.*

xidmətləri olmuşdur.[10] Onun Varşavada fransız dilində nəşr edilən “Şərq povestləri” kitabı hər iki xalq arasında əlaqələr tarixinin öyrənilməsində ciddi mənbədir. Böyük mütəfəkkir, dramaturq Mirzə Fətəli Axundovun da Azərbaycan-Polşa əlaqələrinin inkişafında xidmətləri vardır. Belə ki, 1876-cı ildə tanınmış polyak skripkaçı-virtouz M. Antoni de Kontski Tiflisə gəlir. Onunla tanışlıqdan sonra M. F. Axundov skripkaçının olduqca savadlı, geniş dünyagörüşlü və yüksək polemika mədəniyyətinə malik qızına “Vanda” şerini həsr edir. Və böyük yazıçı azərbaycanlı qızları da belə savadlı, açıqfikirli görmək arzusunda idi.[11]

Qeyd edək ki, tanınmış şərqşünas alimlərdən Mirzə Kazım bəyin, Mir Cəfər Topçubaşovun, Məhəmməd Sadıq Ağabəyzadənin də Polşa şərqşünaslığının inkişafında əvəzsiz xidmətləri vardır.[12]

Əslən Göyçaydan olan Məhəmməd Sadıq bəy Ağabəyzadə 17 ilə qədər (1927-1943) əsası 1661-ci ildə qoyulmuş Lvov Universitetində çalışmış, istedadlı şərqşünaslar nəsli yetirmişdir.

XX əsrin əvvəllərində isə Azərbaycanda mindən çox polyak yaşayırdı. Bakıda yaşayan polyakların “Faris” adlı 200 tirajdan ibarət elmi-ədəbi aylıq qəzeti nəşr edilirdi. Qəzetin redaktoru Voyniloviç idi. Qəzetin ilk sayı 1907-ci ilin yanvar ayının 22-də çap edilmişdi. 1908-ci ildə isə qəzet nəşrini da-

[10] *М.Рафили. Тюркские западники. Автореферат канд. Дисс. Ленинград, 1936).*

[11] *М.Рафили. Мирза Фатали Ахундов. Баку, Азернешр, 1939, с.88-89.*

[12] *Г. Абдуллабекова. Темы и инспирации Азербайджана в Польской литературе XIX века. Баку, “Озан”, 1999, с. 95-96; А. К. Рзаев. Азербайджанские востоковеды XIX века. Баку, Элм, 1986.*

yandırdı.[13] Bakıda çap olunan "Kaspi" qəzetində isə Adam Mitskeviç[14] və H. Senkeviçlə[15] bağlı yazılar və onların əsərləri nəşr edilirdi. Yenə həmin dövrdə Polşa yazıçısı A. Asnıkanın "Polşa ürəyi" əsəri tamaşaya qoyulur. "Kaspi" qəzetində isə sonradan da mütəmadi olaraq Polşa ilə bağlı yazılar, məlumatlar dərc edilirdi. [16]

XX əsrin əvvəllərində Azərbaycanda nəşr edilən aşağıdakı qəzet və jurnallarda Polşanın mədəni-siyasi həyatı ilə bağlı yazılar çap edilirdi: "Molla Nəsrəddin", "Təzə həyat", "Səda-yi-Qafqaz", "Açıq söz" [17], "Sovqat".[18]

M.Ə.Rəsulzadənin redaktoru və naşiri olduğu "Açıq söz" qəzeti də Azərbaycan-Polşa əlaqələri ilə bağlı məlumatlara geniş yer ayırırdı. 1916-cı ildə "Açıq söz"də tanınmış Polşa yazıçısı Henrix Senkeviçin ölümü haqqında nekroloq çap edilmişdi.[19]

"Açıq söz" qəzetinin 1917-ci ilin 24 yanvar tarixli sayında isə Bakıda Henrix Senkeviçin xatirəsinə həsr edilmiş tədbir haqqında məlumat verilmişdi. Tədbir yanvarın 22-də Polşa Cəmiyyəti tərəfindən təşkil edilmişdi və 40-a qədər millətin nümayəndəsi iştirak edirdi. Polyakların nümayəndəsi tədbiri açıq elan etdikdən sonra gürcülərin, yəhudilərin, çexlərin, polyakların, latışların təmsilçiləri də çıxış etdilər. Azərbaycan ziyalıları adından isə Mehdi bəy Hacınski, Əli Səbri Qasımov,

[13] *(Г. Абдуллабекова. Темы и инспирации Азербайджана в Польской литературе XIX века. Баку, "Озан", 1999, с.120.*

[14] *"Каспий", 1898, N268*

[15] *"Каспий", 1901, N71*

[16] *"Каспий", 1901, N72.*

[17] *"Açıq söz", 07.11.1916;"Açıq söz", 24.01.1917.*

[18] *M. N. Qaragözov. Polşa məsələsi. Bakı, "Sovqat", 06.12.1916.*

[19] *"Açıq söz", 07.11.1916.*

Sara xanım Axundova, Nəriman Nərimanov, Rza Zəki Lətifbəyov, Əlimərdan bəy Topçubaşov çıxış etdilər. Tədbirdə M.Ə.Rəsulzadənin çıxışı çox təsirli oldu və böyük maraqla qarşılandı.

XX əsrin əvvəllərində Polşanın tanınmış neft sənayeçisi S. İ. Rılski Bakıda "Polşa Komitəsi"ni yaratmışdı və bu komitə Polşa qaçqınlarına kömək edirdi.

Eyni zamanda Bakıda ayrıca "Polşa evi" də fəaliyyət göstərirdi. "Polşa evi" tez-tez mədəni tədbirlər keçirir, maraqlı tamaşalar səhnəyə qoyurdu.[20]

Qeyd edək ki, sonralar Polşa yazıçısı S.Strumif-Voytekviç Bakıda yaşamış polyakların həyatından bəhs edən "Mənim Bakıya qayıdışım" romanını, Stefan Jeromski isə polyakların demokratik respublika dövründəki həyatından bəhs edən "Baharın sonu" əsərini yazmışdı.

Azərbaycanlıları polyaklarla əlaqələndirən çoxlu sayda faktları sadalamaq mümkündür. Məşhur polyak şərqşünası Vladislav Kostyuşki isə 1858-ci ildə çap edilmiş yazılarında məşhur alim və şair Mirzə Kazım bəy haqqında maraqlı məlumatlar vermişdir. O, göstərmişdir ki, Mirzə Kazım bəy 18 il Polşada yaşamış və polyak dilini əsaslı şəkildə öyrənmişdir. Eyni zamanda o, Varşavaya gözəl şerlər həsr etmişdir. Mirzə Kazım bəyin poetik nümunələri içərisində polyak dilində dini mövzuda yazdığı bir neçə şer də vardır. [21]

M.Ə.Rəsulzadə tanınmış Azərbaycan şairi Məhəmməd Hadinin Polşa haqqında olan şeirləri ilə bağlı özünün 1936-cı

[20] *Г.Абдуллабекова. Темы и инспирации Азербайджана в Польской литературе XIX века. Баку, "Озан", 1999, с.123.*
[21] *N.Yaqublu. Azərbaycan-Polşa əlaqələrində M.Ə.Rəsulzadənin rolu. B., "Adiloğlu", 2007, s.34.*

ildə Parisdə etdiyi "Müasir Azərbaycan ədəbiyyatı" adlı məruzəsində maraqlı faktlar açıqlayırdı.[22]

M.Ə.Rəsulzadə çıxışında qeyd edirdi ki, M.Hadinin Polşada yazdığı şeirlər böyük maraq doğurmaqdadır. Bu şerlərində M.Hadi təsadüfən düşdüyü, Karpat dağlarında gedən hərbi döyüşlərin və müharibənin dəhşətli mənzərəsini təsvir edərək həm də müdrik fəlsəfi nəticələr çıxarırdı.

Qeyd edək ki, çar Rusiyasının amansız rejimi şəraitində yaşayan polyaklar azərbaycanlılara qarşı imkan olanda xeyirxahlıq göstərirdilər. Milli mətbuatımızın ilk nümunəsi olan "Əkinçi" qəzetinin nəşrinə milliyyətcə polyak əsilli Bakı qubernatoru Staroselski xeyirxahlıqla yanaşmışdı.

Bakı neft sənayesi rayonunda polyak kapitalistlər də çıxış edirdilər ki, onların arasında Rılski qardaşlarını göstərmək olar. Əsədullayev qardaşlarının neft şirkəti Polşaya neft daşıyırdı və orada çoxlu ambarları vardı.

Əslən polyak olan vəkil Vonsoviç isə 1918-ci ildə formalaşan ilk Azərbaycan Parlamentinin üzvü idi. Azərbaycan Xalq Cümhuriyyəti dövründəki (1918-1920) mövcud qaydalara görə milli azlıqların nümayəndələri yalnız bir mandata sahib olurdu. Polyak Vonsoviç parlament iclaslarındakı çıxışlarında həmişə Azərbaycan dövlətçiliyinin və milli partiya olan Müsavatın mövqeyini müdafiə edirdi.

Azərbaycanda yeni, demokratik dövlətin qurulmasında da polşalı ziyalılar yaxından iştirak edirdilər. Mühəndislər, hüquqşünaslar bu sahədə böyük fəallıq göstərirdi. Azərbaycan ordusunun formalaşmasında isə polyak zabitlərin böyük rolu vardı. Sonradan bolşeviklər tərəfindən güllələnən pol-

[22] *М.Э.Расулзаде. Современная литература Азербайджана. Париж, 1936, с.11-17.*

yak, tatar əsilli general Sulkeviç Azərbaycan ordusunun qərargahına başçılıq edirdi.

Qeyd olunmalıdır ki, Azərbaycanda 1918-1920-ci illərdə ilk demokratik dövlət qurulmasında və möhkəmlənməsində Polşa tatarlarının da mühüm rolu olmuşdu. Onların arasında 1919-cu ilin martından 1920-ci ilin apreilndə Azərbaycanın bolşeviklər tərəfindən işğalına qədər Azərbaycan ordusunun Baş Qərargah rəisi vəzifəsində işləmiş general-leytenant Masey Sulkeviç (1865-1920)[23], Nazirlər Şurası dəftərxanasının rəisi, publisist və tarixçi Leon Kriçinski (1887-1939[24], onun qardaşı Ədliyyə Nazirinin müavini Olqerd Kriçinski (1885-1939)[25] və başqalarının fəaliyyəti diqqəti cəlb edirdi. Ümumilikdə isə Azərbaycan Xalq Cümhuriyyətinin hərbi və dövlət strukturlarında 20 nəfərə qədər Polşa tatarı çalışırdı.

Azərbaycanda güclü bir ordunun qurulmasında isə general-leytenant Masey Sulkeviçin (bəzi mənbələrdə o, Məhəmməd, bəzilərində isə Süleyman Sulkeviç kimi göstərilir) əvəzsiz xidmətləri vardı. 1919-cu ilin martın 19-da Hərbi Nazir Səməd bəy Mehmandarovun əmri ilə Azərbaycan ordusunun Ümumi Qərargah rəisi təyin olunan M.Sulkeviç milli ordu quruculuğu işlərində əsl fədakarlıq göstərmişdi.[26]

Polşa tatarlarının digər nümayəndəsi olan Olqerd Nayman Mirzə Kriçinski, Bakıda əvvəl Apellyasiya məhkəməsin-

---

[23] *Arastun-Bej. Generał Maciej Sulkiewicz (1865-1920. Rocznik Tatarski. t.1, Wilno, 1932 r; Leon Kryczyński. Aleksander Sulkiewicz (ps. Czarny Michał, 1867-1916). Rocznik Tatarski. t.1, Wilno, 1932 r.*

[24] *Azərbaycan Cümhuriyyətinin qurucuları. B., 2018, B., "Elm və Təhsil"s.105-116.*

[25] *V.Quliyev. Polşa tatarları Azərbaycan dövlətçiliyinin xidmətində: Kriçinski qardaşları. "525-ci qəzet", 16 dekabr 2008-ci il.*

[26] *V.Quliyev. Polşa tatarları Azərbaycan dövlətçiliyinin xidmətində: general Masey Sulkeviç. "525-ci qəzet", 2, 9, 16, 23, 30 dekabr 2006-cı il; N.Yaqublu. Cümhuriyyət Qurucuları. Bakı: Nurlar, 2018, s 391-397.*

də prokuror, sonradan isə Ədliyyə nazirinin müavini işləmişdi. Onun qardaşı Leon Nayman Mirzə Kriçinski isə Nazirlər Kabinetində dəftərxana direktoru və hökumətin rəsmi orqanının redaktoru vəzifəsində çalışmışdı.[27]

Digər bir polyak isə Xarici İşlər Nazirliyində kanselyariya direktoru olaraq işləmişdi. Polyak Muxranski Nəzarət Nazirliyinin dəftərxana direktoru, Aleksandr Poltoji isə Sənaye və Ticarət Nazirliyinin departamentlərindən birinin rəhbəri idi.

Qeyd edək ki, çar hökumətinin Azərbaycanda yürütdüyü siyasət milli kadrlardan ibarət olan mütəxəssislərin hazırlanmasını qeyri-mümkün etmişdi. Odur ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə yeni cəmiyyət quruculuğu prosesinə başqa millətlərin nümayəndələri ilə yanaşı polyaklar da cəlb edilmişdi.

Azərbaycan ərazisində digər peşələrdə işləyən polyaklar da az deyildi: həkimlər, vəkillər, mühəndislər və s. Bakının ən gözəl memarlıq abidələrindən biri olan, vaxtilə Müsəlman Xeyriyyə cəmiyyətlərinin yerləşdiyi "İslamiyyə" binası da polyak-mühəndis Ploşkonun layihəsi ilə tikilmişdi.

Azərbaycanın müxtəlif bölgələrində bolşeviklərə qarşı aparılan mübarizədə polyaklar əsl fədakarlıq göstərmişdilər. Polyak zabitlərdən Zuqeniuş Dunin-Martsinkeviç, kapitan Yeji Klossovski, kapitan Çarnetski, kapitan Pavlovski, kapitan Tomişin və başqaları Gəncədə silahlı müqavimətin təşkilində xüsusi olaraq fərqlənmişdilər.

Polkovnik Dunin-Martsinkeviçin başçılığı altında onlar milli ordumuzda artilleriyanı təşkil edərək bolşeviklərə qarşı çoxlu sayda döyüşlərdə cəsarətlə vuruşurdular. Müsüslüdə,

---

[27] *Azərbaycan Cümhuriyyətinin qurucuları. B., "Elm və Təhsil", 2018, s.105-116.*

Hacıqabulda, Kürdəmirdə, Ələtdə döyüşlərdə əldə edilən uğurlarda polyakların başçılıq etdiyi Azərbaycan artilleriyasının xüsusi rolu olmuşdu. 1918-ci il sentyabrın 15-də Bakının türk qoşunlarının köməyi ilə düşmənlərdən azad edilməsində də artilleriyanın fəallığı olmuşdu. Türk zabitləri başda Nuru Paşa olmaqla belə fikir söyləmişdilər: "Türk piyadası Azərbaycan artilleriyasına söykənib hər şeyi edə bilər".[28]

Bakının azad edilməsindən sonra bütün zabit-polyaklar "qəhrəmanlığa görə" türk ordenləri ilə təltif edilmişdilər. Eyni zamanda onlar Azərbaycan hökumətinin təşəkkürünü də qazanmışdılar. Türklər Mudros müqaviləsinin şərtlərinə əsasən Azərbaycan ərazisini tərk edib getdikdən sonra polyaklar milli ordu quruculuğuna böyük dəstək verdilər. Azərbaycanın ordu sistemində polyaklar yüksək vəzifələr tuturdular. Yüngül artilleriyadan ibarət olan diviziyalardan birinə Xarkeviç, atlı artilleriyasına isə polkovnik Dunin-Marçinkeviç rəhbərlik edirdi. Piyada qoşunlarında isə polkovnik Dzevulski və kapitan Snetlovski seçilirdilər. Ordunun süvari hissələrində də müxtəlif vəzifələrdə çalışan polyaklara rast gəlmək mümkün idi. Azərbaycanın milli ordusunda hansı sahədə olmasından asılı olmayaraq polyaklara həmişə böyük hörmətlə yanaşılırdı.[29]

Məhz polyakların köməyi ilə Bakıda döyüş silahları təmir edən müəssisə yaradılmışdı. Həmin müəssisədə polyaklar mərmilər istehsal edirdi. Bu sahədə polkovnik Dunin-Marçinkeviç və kapitan Rodzeviç böyük fəallıq göstərirdi.

[28] *M.E.Resulzade. Azerbaydzan w walce o niepoleglosc. Azerbaydjanskie wydawnictwo narodowe Warsawa, 1938. s. 172.*

[29] *Yenə orada, s. 172.*

M.Ə.Rəsulzadə polyak dilində nəşr edilmiş "Azərbaycan müstəqillik uğrunda mübarizədə" kitabında isə əslən polyak olanların adını sadalayır: "Azərbaycanın müəssisələrində mən yalnız tatar polyaklarını deyil, eyni zamanda əsl polyakları da görmüşdüm. Biz əlbəttə ki, texniki səbəblərə görə burada həmin adamların böyük bir siyahısını vermək fikrində deyilik. Lakin Azərbaycanın dövlət həyatında iştirak etmiş bəzi polyakların adlarını çəkmək istəyirəm: Çeslav Qutovski – təhqiqat hakimi, Çeslav Klossovski – prokuror köməkçisi, Kazimej Jepski – prokuror köməkçisi, Komarovski – prokuror köməkçisi, Ziqmund Belinski – notarius, Zaxobiç – hakim, Paçeviç – hakim, Kiselevski – Ədliyyə Nazirliyinin kanselyariya direktoru və s.

Göründüyü kimi, polyaklar hüquq sahəsindəki işlərdə üstünlük təşkil edirdilər. Lakin onlardan bəziləri dövlət müəssisələrində də müxtəlif vəzifələr tuturdular". [30]

Qeyd edək ki, Azərbaycanın beynəlxalq dövlətlərə tanıdılmasında da polyakların ölkəmizə həmişə dəstəyi olmuşdu. Azərbaycan nümayəndələri Versal konfransında Polşa nümayəndələri ilə sıx əlaqələr qururdu. Onlar Parisdə Paderevski və digər nümayəndələrlə tez-tez görüşürdü.

Məlumdur ki, Azərbaycanı tanıyan 23 dövlətdən biri də məhz Polşa idi. O dövrdə başda Filippoviç olmaqla (sonradan Polşa Respublikasının Amerikada səfiri) xüsusi bir nümayəndə heyəti Bakıya gəlmişdi.

1920-ci ildə bolşeviklər Azərbaycanı işğal etdikdən sonra ilkin olaraq Gəncə şəhərində böyük üsyan oldu. Bolşevik-

[30] *M.E.Resulzade. Azerbaydzan w walce o niepoleglosc. Azerbaydjanskie wydawnictwo narodowe Warsawa, 1938, s.173-175.*

lərə qarşı aparılan qanlı döyüşlərdə minlərlə yerli əhali və əsgər-zabitlərimizlə yanaşı artilleriya zabiti polyak Stankeviç də şəhid oldu.

Tarixdə Azərbaycanla Polşanı yaxınlaşdıran çox məqamlar vardır. Bu faktlar həqiqətən hər iki xalqın arasında xoş və səmimi münasibətlərin olduğunu təsdiqləyirdi.

# Azərbaycan neft sənayesinin inkişafında polşalı mütəxəssislərin rolu



## PAVEL POTOTSKİ

**(1879–1932)**

Tanınmış neft mütəxəssisi Pavel Pototski 1879-cu ildə Rusiyanın Peterburq şəhərində anadan olmuşdur. Atası infanteriya generalı idi və Mixaylovski akademiyasının professoru olaraq tanınırdı. O, oğlunu da hərbi xidmətə – Pajes korpusuna göndərməyi lazım bilmişdi. Lakin Pavel mühəndis olmaq istəyində idi. O, Pajes korpusundan Yollar və Rabitə İnstitutuna keçərək ali təhsilini burada alır. P.Pototski 1901-ci ildə institutu bitirir, sonra Hollandiyaya gedir, burada yer qazma işlərinin incəliklərini öyrənir.[31]

Hollandiyadan qayıtdıqdan sonra P.Pototski Xersonda Dnepr çayının mənsəbindəki kanalın tikintisində işləyir.

1910-cu ildə Bakı neft sənayeçiləri mühəndis P.Pototskini Bibiheybət buxtasının doldurulması işlərinə rəhbərliyə dəvət

[31] *R.H.Məmmədov, V.M. Həsənov, R.M. Əzizova. Azərbaycan nefti və Polşalı mühəndis Pototski. Bakı, "Nağıl evi", 2005, s.47*

etdilər. O dövrə kimi heç bir yerdə sulu ərazinin torpaqla doldurulması işləri aparılmamışdı. Qeyd edək ki, XIX əsrin 90-cı illərdə neft sənayeçiləri çar hökumətindən Bibiheybət körfəzinin su ərazisinin istismarına icazə verilməsini xahiş edirdilər.

Lakin bu fikir bir müddət hökumət tərəfindən qəbul edilmədi.

Azərbaycan Respublikası Milli Dövlət Arxiv İdarəsində saxlanılan sənədlərdə körfəzin torpaqla doldurulması işlərində baş mühəndis P.Pototskinin verdiyi əmrlərinə, sərəncamlarına, məsləhətlərinə, məruzələrənə rast gəlinir. Bu sənədlərdə onun işgüzarlığı, buxtanın torpaqla doldurulması sahəsində biliyi və bacarığı, təcrübəli rəhbərliyi görünməkdədir.

Bu işlərin əsası qurudulacaq sahələrdə neft mədənlərinin yaradılması və dənizə doğru qazma işlərinin aparılması ilə bağlı idi.

Bununla əlaqədar P.Pototskinin təklifi əsasında 1910-cu ildə Sormovo zavoduna bir karvan yerqazıma maşınlarının hazırlanması sifariş edilir. Bu sifarış 1916-cı ildə yerinə yetirilir.

Bu karvan 1100 at gücünə malik 2 torpaqsoran maşından, 1100 at gücünə malik 5 yedək gəmisindən, 1100 kub metr həcmində 10 barjdan və digər obyektlərdən ibarət idi. 1918-ci ildə aparıln işlər nəticəsində həmin yerin 193 hektarını torpaqla doldurmaq mümkün olur. Qeyd edək ki, o illərdə Rusiyada vətəndaş müharibəsinin başlanması da Bibiheybət körfəzində çalışmaları ağırlaşdırırdı.

Bir müddət sonra P.Pototski 41 yaşında göz işığından məhrum olur.[32]

P.Pototski üçün ağır olan belə bir dövrdə Bakı neftçiləri onu unutmadılar. Bibiheybət körfəzində işlərin davam etdi-

[32] *R.H.Məmmədov, V.M. Həsənov, R.M. Əzizova. Azərbaycan nefti və Polşalı mühəndis Pototski. Bakı, "Nağıl evi", 2005,* s.51

rilməsi ilə bağlı sərəncamdan sonra Azneftin rəhbəri Serebrovski P.Pototskiyə buxtanın doldurulma işlərinə rəhbərlik etmək təklifini irəli sürdü.

Göz işığından məhrum olan P.Pototski əvvəlcə təklifi qəbul etmək istəməsə də sonradan razılaşdı.

P.Pototskinin özünün möhkəm iradəsi və cəsarəti “dənizdən torpaq sahəsi qoparmağa” imkanlar açdı. Onun belə qətiyyətli çalışması Azərbaycanın sərhədlərindən uzaqlarda yayılaraq məşhurlaşdırdı.

Bakı neft sənayesi ilə bağlı sənədlərdən aydın olur ki, 1922-ci ilin payızında geoloq Qolubyatnikov P.Pototski haqqında yazırdı: “Bibiheybət körfəzinin doldurulmasında göstərdiyi fədakar xidmətlərinə görə borclu olduğumuz bu istedadlı mühəndis hazırda əqli fəaliyyətinin çiçəklənən bir çağında görmə qabiliyyətini itirib. Ümid edirik ki, Azneft imkan tapıb bu əməksevər insanı mükafatlandıracaq. Xüsusən Pavelin həyata keçirdiyi böyük işlərə görə isə “neft maqnatları” onun haqqını ödəməyiblər. Bu örtülmüş buxtanı biz demək olar ki, pulsuz qazanmışıq. Neft sənayesində Pototskinin maraqları yalnız hidrotexniki işlərlə tamamlanmırdı. Pototski mənə Naftalan bumundan ta cənuba qədər uzanan sualtı qumsal qayaların ölçülərini də bildirmişdi”.[33]

Qeyd edək ki, P.Pototskinin xəritəsində qayaların Naftalan bumundan cənuba doğru IV layın 130-cu horizontuna paralel olaraq cərgə ilə çıxdığı göstərilirdi. Bu çox qiymətli bir qeyd idi. P.Pototskinin ikinci, çox dəyərli qeydi ondan ibarət idi ki, o, buxtanın xəritəsini tərtib edərkən qazın 7 çıxışını göstərmişdi.

---

[33] *R.Həsənov, R.H.Məmmədov, V.M. Həsənov, R.M. Əzizova . Azərbaycan nefti və Polşalı mühəndis Pototski. Bakı, “Nağıl evi”, 2005, s.52*

Bu məlumatlar P.Pototskinin dərin biliyə, geniş dünyagörüşünə malik olduğunu təsdiqləyirdi.

1922-ci ilin sonlarında torpaqla örtülmüş sahədə 6 saylı ilk qazma quyusu quraşdırıldı. 1923-cü ilin aprel ayının 18-də Iliç körfəzində (3-cü layda) 82, 5 metr dərinliyində quyu işə salındı. Bu yeni torpaqla örtülmüş sahədən vuran ilk neft fantanı bütün dünyaya səs saldı, Beynəlxalq neft konfranslarında ciddi maraq kəsb etdi.

Bibiheybət körfəzinin, həmçinin "çala"nın doldurulmasının ilk işi yekunlaşdıqdan sonra P.Pototski digər ikinci bir layihə hazırladı. layihədə əlavə olaraq 79 hektar ərazinin torpaqla doldurulması planlaşdırılırdı. İkinci layihə P.Pototskinin dünyadan köçməsi ərəfəsində reallaşdı.1930-cu ilin əvvəlində isə P.Pototskinin layihəsi əsasında dənizin torpaqla örtülən ərazisi 100 hektara çatdırıldı.

Görülən işlər nəticəsində Bibiheybət körfəzinin tam örtülmüş sahəsi 1910-cu ildən başlayaraq 300 hektara çatdırıldı. Böyük istedadı, biliyi və geniş təcrübəsi olan P.Pototski 20 ildən çox çalışması müddətində maraqlı tikinti işlərinin başçısı olmuş, layihələrə müəlliflik etmişdir.

Məşhur rus yazıçısı Maksim Qorki də P.Pototskiyə olan sayğısını belə ifadə etmişdi: "eşitmişəm Pototski bir əfsanədir. Gözləri görmədiyi halda Bibiheybəti yaxşı tanıyır, torpaqla doldurulma işlərinin görülən və görüləcək yerini xəritədə düzgün göstərir".[34]

Pavel Nikolayeviç Pototski 1932-ci ildə dünyasını dəyişir. Onu vəsiyyətinə görə Xəzərin sahilində, Bibiheybətin torpaqla doldurulmuş sahəsində dəfn edirlər.

[34] *R.H.Məmmədov, V.M. Həsənov, R.M. Əzizova. Azərbaycan nefti və Polşalı mühəndis Pototski. Bakı, "Nağıl evi", 2005, s.55*

Polşalı mühəndis P.Pototskinin Azərbaycanın neft sənayesinin inkişafındakı fəaliyyəti Bibiheybət yataqları ilə geniş əlaqəlidir.

Bu xidmətlərinə görə P.Pototskiyə Azərbaycanda abidə qoyulmuşdur.




*Bakının Bibiheybət adlı məkanında məşhur neft mühəndisi Pavel Pototskinin məzarı yerləşir. 1932-ci ildə dünyadan köçdükdə öz vəsiyyəti ilə Bibiheybətdə, dənizin sahilində, neft nasosları və qazma platformalarının əhatəsində dəfn edilib. Polşa Respublikasının Bakıdakı Səfirliyinin səyləri nəticəsində qəbir Şəhidlik və Mübarizə Xatirəsinin Qorunması üzrə Şuranın təqdim etdiyi vəsaitlə yenidən qurulmuşdur. Bərpa olunmuş qəbir daşının açılışı 2005-ci ilin 9 noyabr tarixində baş tutmuşdur. Heykəltəraş Rizvan Babayev polyak və şərq elementlərini birləşdirən abidəni hazırlayıb.*

# KAZİMİR PETROVİÇ KALİTSKİ

**(1837-1941)**

Tanınmış geoloq-neftçi, geologiya-minerologiya elmləri doktoru, professor Kazimir Petroviç Kalitskinin tərtib etdiyi neft yataqlarının geoloji xəritələri və təsviri yüksək dəqiqliyi ilə fərqlənir və indiyədək əhəmiyyətini itirməyib.

K.Kalitski 1873-cü ildə Peterburqda anadan olub. 1899-cu ildə Peterburq Dağ-Mədən İnstitutunu başa vurduqdan sonra iki il Ukraynanın metallurgiya müəssisələrində fəaliyyət göstərib. 1901-ci ildən geologiya ilə məşğul olmağa başlayıb. Həmin ildə o, Peterburqda Geologiya Komitəsində, onun yenidən təşkilindən sonra isə Neft Elmi–Tədqiqat Geoloji Araşdırma İnstitutunda çalışır.[35]

1907-1909-cu illərdə K.Kalitski V.N.Veberlə birgə Çələkən adasının (1930-cu ildən sonra yarımadanın) geoloji quruluşunun tədqiqi ilə məşğul oldu. Bu yataqların tədqiqi nəticəsində adanın geoloji xəritəsi tərtib edildi.

1910-cu ildə Peterburqda Geologiya Komitəsi "Əsərləri"-nin 59-cu sayında K.Kalitski “Çələkən adasında neft yataqlarının şəraiti haqqında” məqaləsini dərc etdirir. Məhz K.Kalitskinin yuxarıda qeyd edilən işi nəticəsində Qərbi Türkmə-

---

[35] *Polşa neftçiləri XIX–XX əsrin ayrıcında. Польские нефтяники в Азербайджане на рубеже XIX–XX веков (Azərbaycan və rus dillərində). Polşa Respublikasının Bakıdakı səfirliyi (nəşrə hazırlayan: N.Yaqublu). Bakı, 2008, s.60.*

nistanda neft yataqlarının "ibtidailiyi" (ilkin) nəzəriyyəsini dərindən tədqiq etməyə başladılar.

K.Kalitskiyə etirazını bildirən İ.M.Qubkin isə 1932-ci ildə Moskvada nəşr etdirdiyi "Neft haqqında nəzəriyyə" əsərində yazırdı: "Neft yataqlarının yaranmasını öyrənən tədqiqatçılar arasında onun "ibtidai" yatırımının qatı tərəfdarları var, məsələn, K.Kalitski". Və sonra yazırdı: "Bu nəzəriyyədə (söhbət qravitasiya və ya struktur nəzəriyyəsinə görə, neft, qaz və suyun xüsusi çəkisinə görə yerləşdiyi antiklinal qırışlardan gedir) ardıcıl rəqibimiz K.Kalitski idi. O, hesab edirdi ki, neft üzvi materialların yığılması üçün müvafiq şəraitin olduğu yerdə meydana gəlib və toplanıb". İ.M.Qubkin Novoqroznetsk yatağı və Bakının Binəqədi rayonundakı neft sahəsi nümunələri əsasında K.Kalitskinin baxışlarının əsassızlığını göstərməyə çalışırdı. Qeyd edirdi ki, K.Kalitski həmçinin neftin Xəzər və bir sıra başqa dənizlərin dibində geniş yayılmış Zoster yosunlarının yaranmasına dair də yanlış mövqedədir.

K.Kalitskinin baxışlarını tənqid edən İ.M.Qubkin yuxarıda qeyd edilən əsərində yazırdı: "Zoster tipli yosunların qalıqları yalnız nisbətən cavan çöküntülərdə aşkar edilib... Bu yosunlar bütün palezoy və mezazoy dövrü neftinin bir hissəsinin yaranmasının izahatına cəlb edilə bilməzlər... Kalitskinin fərziyyəsinə qarşı skeletlərdə üstünlük təşkil edən zosterin tərkibi durur. Qumsal, havanın təsir edə biləcəyi çöküntülərdə skeletlərdə karbohidrogenin yaranmasını təsəvvür etmək çətindir".[36]

[36] *Polşa neftçiləri XIX–XX əsrin ayrıcında. Польские нефтяники в Азербайджане на рубеже XIX–XX веков (Azərbaycan və rus dillərində). Polşa Respublikasının Bakıdakı səfirliyi (nəşrə hazırlayan: N.Yaqublu). Bakı, 2008, s.63*

İ.M.Qubkinin və K.Kalitskinin baxışlarına aydınlığı tanınmış alim-tektonist V.E.Xain gətirdi. 1954-cü ildə Azneftnəşrin çap etdiyi "Neft axtarışlarının geotektonik əsasları" kitabında V.E.Xain yazırdı: "Neft yataqlarının əsl genetik təsnifatının başlanğıcını N.İAndrusov və İ.M.Qubkinin əsərlərində, xüsusilə İ.M.Qubkinin neft yataqlarının ilkin və ikinci məşhur bölgüsündə tapmaq olar. Təəssüf ki, İ.M.Qubkinin bu terminlərdən istifadəsinə mane olan səbəb K.Kalitski ilə neft yataqlarının yaranması barədə polemikada Qubkinin onları başqa mənada işlətməsi idi. Bununla bağlı "neft yataqlarının ibtidailiyi" termini bizim bir çox geoloqlarımızda Kalitskinin quya neft yataqlarını uydurma izahatı ilə bağlı məna aldı".[37]

1911-ci ildə Geologiya Komitəsinin Sankt-Peterburqda nəşr olunan 63-cü buraxılışında K.Kalitski və V.N.Veberin "Çələkən" əsəri işıq üzü gördü. Çələkəndə, Əliqul palçıq vulkanları rayonunda alimlər "tamamilə müxtəlif tərkibli iri qayalardan cəmlənmiş orijinal təpə"ni qeyd etdilər. Burada balıqqulağına bənzər qırıq, sıx yaşıl əhəngdaşı və qaya parçaları, qalın lay qırmızı süxur qalıqları ilə qarışmış bərk əhəngli qumdaşlarını görmək olardı..."[38]

Qeyd edək ki, 1920-ci ildə dünya təcrübəsində ilk dəfə SSRI-nin ali məktəblərində neftin geologiyası ilə bağlı xüsusi kurslar təşkil olunmağa başlandı. Həmin illərdə Leninqrad və Moskvada mühazirələr oxuyan K.Kalitski və Qubkinin ardınca dövrün digər tanınmış geoloqları da bu işə cəlb olundular.

---

[37] *Polşa neftçiləri XIX–XX əsrin ayrıcında. Польские нефтяники в Азербайджане на рубеже XIX–XX веков (Azərbaycan və rus dillərində). Polşa Respublikasının Bakıdakı səfirliyi (nəşrə hazırlayan: N.Yaqublu). Bakı, 2008, s.64*

[38] *Polşa neftçiləri XIX–XX əsrin ayrıcında. Польские нефтяники в Азербайджане на рубеже XIX–XX веков (Azərbaycan və rus dillərində). Polşa Respublikasının Bakıdakı səfirliyi (nəşrə hazırlayan: N.Yaqublu). Bakı, 2008, s.67*

1920-21-ci illərdə isə alimlər Azərbaycan ərazi-sində neft-qaz tərkibli əsas lay dəstəsinin yaranması ilə bağlı müxtəlif fərziyyələr irəli sürdülər. Bununla bağlı, xüsusilə S.R.Zuberin bir sıra məqalələri çap olundu. Burada o, Atəş-gah-Yasamal vadisi və Bibiheybətdə məhsuldar layın genezisi və paralelləşdirilməsi ilə bağlı tanınmış geoloqlar olan K.Kalitski, M.F.Mirçenko və S.A.Kovalevski ilə mübahisə edirdi. K.Kalitski özü məhsuldar qalın layın deltavari yaranması fərziyyəsini irəli sürdü. O, hesab edirdi ki, Abşeron yarımadasında qatlara bölünmüş iki delta mövcud olub. K.Kalitskiyə görə, məhsuldar layın formalaşması antik dövrdə başlamış və Abşeron yarımadasında ağcaqul dənizinin transqressiyası deltanın yaranmasının qarşısını alana qədər, yəni ağcaqul dövrünədək davam etmişdir. Bu fərziyyə K. Kalitskidən sonra S.A.Kovalevski tərəfindən də irəli sürüldü. K.Kalitski məhsuldar layın yaranışı ilə bağlı mülahizələrini 1929-cu ildə "Neft və şist təsərrüfatı" jurnalının dörd nömrəsində dərc etdirdi. Bu məqalələrdə həmçinin Qaradağ sahəsinə həsr edilmiş geoloji tədqiqatlarla bağlı məlumatlar da tapmaq mümkündür.

1922-23-cü illərdə K.Kalitski Xəzəryanı ərazilərdə neft yatırımlarına həsr edilmiş bir sıra məqalələrini yazır. Burada alim Balaxanıətrafı tektonik zona qalxmasının intruziv yaranışı fikrinə meyl edir.

1930-cu illərdə Geologiya Komitəsi Azərbaycan rayonlarının – Şamaxı-Qobustanın, Xəzəryanı rayonun, Kürətrafı ovalığın geniş geoloji çəkilişlərini apardı.

Bu illərdə geologiya və neftvermə qabiliyyətinin öyrənilməsi sahəsinə digər amillərlə yanaşı, K.Kalitskinin də töhfələri oldu.

Sonradan Geologiya Komitəsi yenidən təşkil olunub Neft Elmi-Tədqiqat institutuna çevrildikdə isə K.Kalitski ömrünün sonuna qədər burada çalışdı. O, rus dilində neftin geologiyasına dair ilk dərsliyi hazırladı və neftin yaranmasının qeyriüzvi nəzəriyyəsinə qarşı çıxdı ki, bu da sonradan öz növbəsində neftin qeyri-üzvi maddələrdən yaranması nəzəriyyəsinin əsas götürülməsinə səbəb oldu.

K.P.Kalitski 1941-ci ildə Leninqradda vəfat etmişdir.”[39]

[39] *Polşa neftçiləri XIX–XX əsrin ayrıcında.Польские нефтяники в Азербайджане на рубеже XIX–XX веков (Azərbaycan və rus dillərində). Polşa Respublikasının Bakıdakı səfirliyi (nəşrə hazırlayan: N.Yaqublu). Bakı, 2008, s.72*



# VİTOLD ZQLENİTSKİ
## (1850 – 1904)

Vitold Zqlenitski 1850-ci ilin yanvar ayının 6-da, Polşada anadan olmuşdur. 1875-ci ildə Peterburq Dağ-Mədən İnstitutunu bitirib əvvəl Polşada, daha sonra isə Riqada işləmişdir. O, 1891-ci ildə Bakıya köcmüş və ömrünün sonuna qədər burada çalışmışdır".[40]

Qeyd edək ki, Bakı o dövrdə cox yüksək sürətlə inkişaf etsə də, burada su və kanalizasiya kəmərləri olduqca az idi. Şəhərdə tez-tez xolyera, tif kimi yoluxucu xəstəliklər olurdu. Və məhz Zqlenitskinin təşəbbüsü ilə, Bakıda su kanalının tikintisinə başlanıldı. O, həmçinin elmin inkişafınıda dəstəkləyirdi. Bakıdakı Rus Texniki Cəmiyyyətin kitabxanasına maddi yardım göstərirdi. Qeyd edək ki, o dövrdə Bakinın milyonçuları da müxtəlif elmi-texniki kitabxanalara yardım edirdilər. Müqayisə üçün aşağıdakı siyahıya diqqət edək: Nobel qardaşları kitabxananın hesabına 60, Rotşild şirkəti – 45, milyoncu Tağıyev 33, mühəndis Zqlenitski isə 1000 rubl pul vəsaiti köcürmüşdülər. V.Zqlenitski elmi-texniki təhsilin Bakıda neft sənayesinin inkişafına olan təsirini cox gözəl başa düşürdü. Və onu yüksək professionallığına, tam dürüstlüyünə, vicdanlılığına görə layiqincə dəyərləndirirdilər. V.Zqlenitski bir cox elmi əsərlərin və geologi-

[40] *R.H.Məmmədov, V.M. Həsənov, R.M. Əzizova . Azərbaycan nefti və Polşalı mühəndis Pototski. Bakı, "Nağıl evi", 2005, s.23.*

ya sahəsində (həmcinin Qafqazda neft mədənləri barədə) nəşrlərin də müəllifidir.

Dünya təcrübəsində ilk dəfə olaraq Zqlenitski dənizin dibində zəngin neft yataqlarının mövcudluğunu tədqiq edərək müəyyənləşdirib. O, dənizin dibindən neft hasilatı üçün qurğu işləyib hazırlayaraq bu barədə Bakıdakı Rus Texniki Cəmiyyətinin yığıncağında məruzə edib. Bu yenilikçi layihə Zqlenitskinin ölümündən uzun illər sonra – yalnız 1923-cü ildə həyata keçirilib.

Zqlenitskinin neft hasiları və neft sənayesinin inkişafı sayəsində yenilikçi kəşfləri Azərbaycanda iqtisadi tərəqqi üçün böyük əhəmiyyət kəsb edir. Dənizdəki bütün müasir qazma platformaları öz başlanğıcını mühəndis Zqlenitskinin kəşfindən götürür. O, həmçinin, neft sahələrini tədqiq edərək işarələmiş, yeraltı yataqlar da daxil olmaqla, onların ehtiyatını müəyyənləşdirmişdir. Bakı ətrafında o, 165 zəngin neft yatağı sahələri aşkarlamışdır. Bu nöqtələrdə aparılmış sınaq qazmaları böyük neft ehtiyatlarının mövcudluğunu təsdiqləmişdir ki, bu da mühəndisin böyük istedadından və dərin elmi biliklərindən xəbər verir. Bundan əlavə, o, Azərbaycanın faydalı qazıntı yataqlarının tədqiqatını aparmış, dəmir filizi, pirit, molibden, kobalt, barit, kömür, manqan, mis, daş duz, qızıl, gümüş, arsen yataqları aşkarlamışdır.

V.Zqlenitski 1904-cü ildə ağır formalı şəkər xəstəliyindən vəfat etmişdir. Lakin, ölümündən əvvəl, bütün var-dövlətinin elmin və maarifin inkişafına sərf olunmasını vəsiyyət etmişdir. Və bu təmənnasız vəsiyyətinə görə, Vitold Zqlenitskiyə "Polşalı Nobel" adı verilmişdir". [41]

---

[41] *Polşa neftçiləri XIX –XX əsrin ayrıcında.Польские нефтяники в Азербайджане на рубеже XIX –XX веков (Azərbaycan və rus dillərində). Polşa Respublikasının Bakıdakı səfirliyi (nəşrə hazırlayan: N.Yaqublu). Bakı, 2008, s.75.*

## AZƏRBAYCANIN NEFT SƏNAYESİNDƏ AŞAĞIDAKI POLYAKLARIN DA XİDMƏTLƏRİ OLMUŞDUR:

**Dioniy Bonçkovski** – 1920-ci ildə neft və neft məhsulları istehsalı ilə məşğul olan "Zolotoye Runo" cəmiyyətini yaratmışdır.

**Boleslav Dombrovski (Dubrovski**) – Azərbaycan Politexnik İnstitutunda Neft istehsalı sənayesi fakultəsində mütəxəssis olaraq çalışmışdır.

**Yozef Esman** – Azərbaycan Politexnik İnstitutunda ikinci rektor olmuş, 1924-1953-cü illərdə isə Azərneftdə neft istehsalı üzrə məsləhətçi işləmiş, Elmlər Akademiyasında Energetika İnstitutunun əsasını qoymuşdur.

**Aleksandr Xodzko** – Palçıq vulkanlarını tədqiq etmişdir.

**İosif Xorvart** – Neft hasilatı ilə məşğul olmuş, baron Berqendorfun "Yoldaşlıq" cəmiyyəti ilə əməkdaşlıq etmişdir.

**Pyotr Stelmaşen** – Neft müəssisələrində çox bacarıqlı usta olmuşdur.

**"Palaşkovski"** – Bu şirkət ilə Rotşildlər ailəsi də maraqlanmışlar; əvvəlcə dəmir yolu tikintisində çalışmış, sonra isə neftlə məşğul olmuşlar.

**Yanuar Vışinski** – Neft maqnatı olmuşdur.

**Rılskilər (ata – İppolit, uşaqları – Onufriy, Leon, Mariya, Stefan)** – Neft sahəsində məşhur kapitalistlər olaraq tanınırlar.

**İ.Urbanoviç** – "Berkendorf və Urbanoviç"qazma şirkətinin şəriklərindən biri.

**B.Pavloviç** – Rılskilər ailəsinə məxsus olan neft müəssisələrinin icraçısı.

**Q.Brumbovcki** – Rılskilər ailəsinə məxsus olan neft müəssisələrinin icraçılarından biri.

**A.Balaban** – Rılskilər ailəsinə məxsus olan neft müəssisələrinin icraçılarından biri.

**M.Şerbitski** – Rılskilər ailəsinə məxsus olan neft müəssisələrinin icraçılarından biri.

**Tadeuş Vıqanovski** – Neft sahəsində inşaatçı.

**Yan (Yuxef) Nalenç-Skomorovski (1847-1948)** – 1903-1911-ci illərdə Nobel qardaşlarının neft müəssisələrində geoloq.[42]

[42] *Polşa neftçiləri XIX–XX əsrin ayrıcında.Польские нефтяники в Азербайджане на рубеже XIX–XX веков (Azərbaycan və rus dillərində). Polşa Respublikasının Bakıdakı səfirliyi (nəşrə hazırlayan: N.Yaqublu). Bakı, 2008, s.76-79.*

# Azərbaycan Xalq Cümhuriyyəti dövründə polyaklar



## Viktor Viktoroviç Klenevski
### (1883 –?)

Azərbaycanın Xalq Cümhuriyyəti dövründə Sosial Təminat naziri olan Viktor Viktoroviç Klenevski 1883-cü ilin fevralında Yelizavetpol (Gəncə – red.) şəhərində anadan olmuşdur. O, universitet təhsili almış və ixtisasca hüquqşünasdır.

V.Klenevski Universitet təhsilini bitirdikdən sonra Tiflisdə dövlət işində çalışmışdır. O, burada Qaçqınların işlə təmin edilməsi üzrə şöbə müdiri, Tiflis Dairə məhkəməsinin üzvü olaraq çalışmışdır.

O, Tiflisdə Qafqaz cəbhəsindən olan qaçqınların işi ilə məşğul olur, onların işlə təmin edilməsinə çalışırdı. Klenevski o dövrdə bu sahədə artıq yüksək nüfuz qazanmışdı.Bu nüfuzunun nəticəsi idi ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə onu Sosial Təminat (Himayə) Nazirliyinə Qaçqınlarla

iş üzrə idarəyə rəis təyin edirlər. Onun Azərbaycana dəvətində hökumətdə nazir olmuş K.Lizqarın rolu var idi.

**V.Klenevski 1918-ci ilin dekabrında nümayəndə heyətinin başçısı kimi Zəngəzura və Qarabağa gedib qaçqınların vəziyyəti ilə tanış olmuş, onların ağır, dözülməz vəziyyətinin aradan qaldırılması ilə bağlı təcili tədbirlər görülməsi üçün hökumətə geniş məruzə hazırlamışdı. Onun bu məruzəsi parlament üzvləri arasında da geniş yayılmışdı.**

**V.Klenevski 1919-cu ilin martın 14-də N.Yusifbəylinin təşkil etdiyi ikinci (ümumi sayca beşinci) Hökumət kabinetində Slavyan-Rus Cəmiyyətinin təmsilçisi kimi Sosial Təminat (Himayədarlıq – red.) naziri təyin olundu. O, bu vəzifəni 1919-cu ilin dekabrın 24-nə – hökumətin istefasına qədər icra etdi.**

**O, nazir vəzifəsində çalışarkən xeyriyyəçilik fəaliyyətinə üstünlük verir, kimsəsiz uşaqların qayğısına qalır, hökumətin yığıncaqlarında, idarəçilik xarakterli toplantılarda iştirak edirdi.**

V.Klenevski nazir olaraq Azərbaycan Parlamentində ilk dəfə 1919-cu ilin 14 iyulunda keçirilən 55-ci iclasında çıxış etdi.

H.Ağayevin sədrliyi, Ə.Cövdətin (Pepinovun – red.) katibliyi ilə keçirilən iclasda 13-ə qədər məsələ müzakirəyə çıxarıldı. Müzakirə edilən 12-ci məsələdə Ermənistandan olan müsəlman qaçqınlarına, 13-cü məsələdə isə Zəngəzur qaçqınlarına yardım nəzərdə tutulurdu. Hər iki məsələ üzrə əsas məruzəçi Ə.Əmircanov idi.[43]

[43] *Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920).Parlament (stenoqrafik hesabatlar); 2 cilddə, I c., Bakı: Azərbaycan, 1998, s.830*

Bu məsələlər ətrafında M.Rəfiyev, R.Ağabəyov, H.K.Sanıyev, S.M.Qənizadə, A.Aşurov, A.Kazımzadə, M.Hacıbabayev çıxış etdilər.

**M.Rəfiyevin ikinci dəfə çıxışından sonra söz Sosial Təminat naziri (sədr onu belə təqdim edir: Ümumi Xeyriyyə naziri) Klenevskiyə verildi. O, çıxışında dedi: "Hökumət bütün gücünü qaçqınlara köməyə sərf edir. Ancaq necə kömək etmək? Onların özlərini saxlaması üçün ən aşağı yaşam xərci ilə təmin etməliyik. Aşağı yaşam xərci hazırda ayda 600-800 rubl həcmindədir. Göründüyü kimi, heç bir dövlət, o cümlədən, Azərbaycan indiki vaxtda bu qədər pulu sərf edə bilməz. Əgər buna, minimumdan hesablasaq, 40 milyon rubl sərf etmək lazımdır. Himayədarlıq Nazirliyinin (Sosial Təminat – red.) vəzifəsi bir tərəfdən qaçqınların yaşamağını təmin etmək, digər tərəfdən bütün yollar axtarıb təsərrüfatı bərpa etməkdir. Ən başlıcası onları işləməyə öyrətmək və məcbur etməkdir. Nazirlik də hazırda Qarabağda emalatxana şəbəkəsi təşkil edir. Burada çıxış edən natiqlərdən birinin "emalatxana yalnız kağızda mövcuddur" deməsi düzgün deyildir. Ona görə ki, nazirlik bu emalatxanaların açılmasına yeni başlayıb və artıq Ağdamda, Bərdədə açılıb, hazırda Qarabağda açılır".**[44]

V.Klenevski çıxışında başçılıq etdiyi nazirliyin qaçqınları işlə təmin etmək imkanları araşdırdığını, onların ərzaqla təmin edilməsi və cəmiyyətin faydalı üzvünə çevrilməsi ilə bağlı çalışdığını qeyd etdi.

O, bildirdi ki, bizim nazirliyin səlahiyyətinə aid olmasa da, Xankəndində xəstəxana açılıb və Səhiyyə Nazirliyinə təqdim ediləcəkdir.

---

[44] *Azərbaycan Respublikası Dövlət Arxivi, f.895, s.1, iş.100, v.123*

V.Klenevski Zəngəzurda həkimin, feldşerin sayının az olmasını onların aldıqları 670 rubl həcmindəki aşağı miqdarda olan maaşla izah etdi. Qeyd etdi ki, bundan ötrü həkimlərin maaşları artırılmalıdır.O, bildirdi ki, səhiyyə dəstələrinin də təşkilinə başlanılmışdır. Və ilk olaraq, bu iş Qarabağda yaradılacaqdır. V.Klenevski eyni zamanda Şamaxıda 15 **qida məntəqəsi və xəstəxananın açıldığını, tezliklə dağılmış evlərin bərpasına başlanılacağını qeyd etdi. O, Suraxanıdan Mərdəkana qədər yolun çəkilməsi üçün 3, 5 milyon rubl lazım olduğunu da söylədi.**

**V.Klenevski çıxışının sonunda qaçqınların öz yerlərində qalması üçün Daxili İşlər və Əmək Nazirliklərinin təmsilçilərindən, eləcə də yerlərdəki nüfuzlu adamlardan və parlament üzvlərinin birindən ibarət olan komissiya yaradılmasını təklif etdi.**

**V.Klenevski Azərbaycan Xalq Cümhuriyyətində F.X.Xoyskinin 1918-ci ilin 26 dekabrında təşkil etdiyi Hökumət kabinetində Ərzaq naziri vəzifəsini icra etmiş K.Lizqarın ən yaxın dostu idi. Onların hər ikisi 1918-ci ildə Tiflisdə əsası qoyulmuş Slavyan-Rus Cəmiyyətinin üzvləri idi.**

**Bu cəmiyyət 1918-ci ilin dekabrın 7-də Müttəfiq qoşunların komandanına vurduğu 315 saylı teleqramda Azərbaycan Parlamentinə beş nəfər üzv göndərməsi haqqında məlumat vermişdi.** [45]

1919-cu ilin dekabrında N.Yusifbəylinin başçılıq etdiyi Hökumət kabineti istefa verdikdən sonra V.Klenevski də nazir vəzifəsindən uzaqlaşdı. Bundan sonra o, əvvəl Petrovsk

[45] *Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi, PS – 12174 saylı K.Lizqara aid istintaq işi, v.25*

şəhərinə getdi, Azərbaycan naziri kimi əks-kəşfiyyat tərəfindən həbs edildi. V.Klenevski iki gün həbsdə saxlanıldı, sonradan Rostov şəhərinə yola salındı. Burada onun məqsədi iş tapmaq idi. O, burada bir müddət xəstələndi və sonra 1920-ci ilin mayında Don-Rostanın (Rusiya Teleqraf Agentliyinin Don Vilayət şöbəsi) məsul əməkdaşı kimi çalışdı. Sonra o, Tiflisə ezamiyyətə göndərildi.

V.Klenevski Bakıdan kənarda Fövqəladə Komissiyanın 1238 saylı orderi ilə əməkdaş Mirko tərəfindən 18 noyabr 1920-ci ildə Vladiqafqazda həbs olundu. [46]

O, həbs ediləndə həyat yoldaşı Klavdiya Andreyevna 30 yaşında, qızı Kseniya isə 8 yaşında idi.

V.Klenevski 1920-ci ilin dekabrın 1–2-si arasında Bakıya gətirildi. Dekabrın 3-də isə onu Az.FK-nın müstəntiqləri sorğu-suala çəkdilər. Ona qarşı irəli sürülən əsas ittiham Azərbaycan Xalq Cümhuriyyətində nazir olması idi.

Ağır istintaq proseslərindən sonra onu bolşeviklərlə əməkdaşlıq etməyə razı saldılar. Bundan əlavə, onun özü də bu məzmunlu müraciəti 1920-ci ilin 12 dekabrında FK sədri Xanbudaqova ünvanladı.

1920-ci ilin dekabrın 25-də Az.FK-nın müstəntiqi Ponomaryov "Müsavat naziri" kimi ittiham olunan V.Klenevskinin həbsdən buraxılması haqqında qərar çıxardı.

V.Klenevskinin həbsdən sonrakı həyatı haqqında məlumat yoxdur.

[46] *L.Şüküroğlu. Cümhuriyyət hökuməti repressiya mənganəsində. II c. B., 2000, s.106*

# LEON KRİÇİNSKİ
## (1887 – 1939)



Tanınmış ictimai xadim Leon Kriçinski 1887-ci ilin 25 sentyabrında Vilnüsdə general Konstantin Kriçinskinin ailəsində anadan olub. Peterburq Universitetinin hüquq fakültəsini bitirib. Sonradan Krım Xalq Respublikası hökumətində dəftərxana müdiri vəzifəsində çalışıb. 1918-ci ildə Krımdakı Masey Sulkeviç hökuməti süquta yetirildikdən sonra L.Kriçinski Azərbaycana gəlmişdi. O, burada Azərbaycan Xalq Cümhuriyəti dövründə Nazirlər Şurası Dəftərxanasının rəisi vəzifəsində çalışmış, Azərbaycan dövlətçiliyinin inkişafında mühüm rol oynamışdır.

Leon Kriçinski yazılarını müxtəlif imzalarla çap etdirmişdir: Arslan bəy, Leon Kriçinski, Leon Mirzə Naymanski və digər.

L.Kriçinski Polşada ədliyə sistemində çalışmışdır. O, Polşanın Zamoşk, Qdınya şəhərlərində dairə məhkəməsinin sədri işləmişdir.

L.Kriçinski yaradıcı şəxsiyət olmuş və "Tatarski Roçnik", "Lyud", "Przeglond İslamski", "Slovo", "Kuryer Vilanski", "Vsxod", "Zyçie tatarski" qəzet və məcmuələrində tarix, din, etnoqrafiya, hərbi mövzularda çoxlu sayda məqalələri çap edilmişdir.

Onun Baş redaktorluğu ilə 1932-1938-ci illərdə "Tatarski Roçnik" ("Tatar İlliyi") məcmuəsi işıq üzü görmüşdür. Qeyd edək ki, "Tatarski Roçnik"in ilk sayı çap edilərkən Azərbaycanın görkəmli dövlət xadimi M.Ə.Rəsulzadə "Əleyküm-salam" adlı təbrik məqaləsi yazmışdır.

L.Kriçinskinin yazdığından məlum olur ki, onun əmisi qızı Zina Kriçinskaya 1919-1920-ci illərdə Bakı şəhərinin hərbi komendantı olmuş azərbaycanlı general Firudin bəy Vəzirovla (1850-1925) ailə həyatı qurmuşdur.

Qeyd edək ki, L.Kriçinski Azərbaycan Cümhuriyyəti Nazirlər Şurasının 8 may 1919-cu il tarixli əmri ilə hökumət dəftərxanasının rəisi, eyni zamanda "Azərbaycan Respublikası Hökumətinin xəbərləri" rəsmi nəşrinin redaktoru olmuşdur. L.Kriçinski bir müddət Azərbaycan Nazirlər Şurası yanındakı Xüsusi Şöbənin işinə də rəhbərlik etmişdi.

L.Kriçinski 1919-cu ilin sentyabrında Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirinə müraciət edərək çar hakimiyətinin yürütdüyü müstəmləkə siyasətinə aid sənəd və materialların toplanması üçün xüsusi komissiyanın yaradılması təklifini irəli sürmüşdü.

Azərbaycan Xalq Cümhuriyyətinin həmin dövrdəki Xarici İşlər Naziri M.Y.Cəfərovun 13 oktyabr 1919-cu il tarixli 59 saylı əmri ilə L.Kriçinskinin rəhbərliyi altında "Zaqafqaziyanın müsəlman əhalisinə qarşı rus siyasətinə dair" arxiv sənədlərini toplamaq üçün komissiya yaradılmışdı. Komissiyanın tərkibinə aşağıdakılar daxil idi: 1) Konstantin (Kərim) Sulkeviç – Nazirlər Şurası Dəftərxanasının kargüzarı; 2) Əli Yusif Yusifzadə – şair; 3) Məhəmməd bəy Ağayev –Daxili İşlər Nazirliyinin katibi (sonralar Miçiqan Universitetinin professoru kimi tanınmış Məhəmməd Ağayev);

1919-cu ilin dekabrından Azərbaycan Parlamentinin qanunvericilik şöbəsinin müdiri Hüseyn bəy Mirzəcamalov da komissiyanın işinə cəlb edilmişdi. Bu komissiyanın fəaliyəti Xarici İşlər Nazirliyi tərəfindən maliyələşirdi.

L.Kriçinskinin də fəallıq göstərdiyi komissiya altı ay müddətində üç hissədən ibarət olan **"Ucqarlarda rus siyasəti oçerkləri"** sənədlər məcmuəsini hazırlayıb nəşr etdirdilər. Nəşrin xərci də Xarici İşlər Nazirliyi tərəfindən ödənildi. Bu komissiya Azərbaycanın bolşeviklər tərəfindən işğalına – 1920-ci ilin aprelinə qədər fəaliyət göstərmişdi.

Bu sənədlər məcmuəsində 1863-1920-ci illərdə çar Rusiyasının Azərbaycan türklərinə qarşı apardığı müstəmləkəçilik siyasəti öz əksini tapmışdı.

L.Kriçinski 1920-ci ildə Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra – həmin ilin iyununda Litvanın Azərbaycandakı konsulunun köməyi ilə Litva vətəndaşı pasportu alıb, əvvəl Moskvaya, oradan isə Vilnoya (Vilnüsə) getmişdi.

1939-cu ilin sentyabrında Polşa işğal edildikdən sonra L.Kriçinski həbs edilmiş və həmin ilin sonunda (bəzi məlumatlara görə 1940-cı ilin əvvəllərində) 12 min nəfər polyakla birlikdə meşədə güllələnmişdi. [47]

[47] *Azərbaycan Cümhuriyyətinin qurucuları. B., 2018, "Elm və Təhsil", s.105-116*



# OLQERD KRİÇİNSKİ
## (1884 – 1941)

Olqerd Nayman Mirzə Kriçinski 22 oktyabr 1884-cü ildə Vilnüsdə anadan olub. Polşanın ictimai və siyasi xadimidir. 1908-ci ildə Peterburq Universitetinin hüquq fakültəsini bitirib. Vilnüsdə, Türküstanda məhkəmə orqanlarında çalışıb. Krım Xalq Respublikası Məhkəmə Palatasının prokuroru olub. Azərbaycan Cümhuriyyəti Ədliyyə Nazirinin müavini vəzifəsində çalışıb. Sonradan Vilnüs Ali məhkəməsinin prokuroru, 1932-ci ildən isə Varşava Ali məhkəməsinin prokuroru olub. Polşadakı Tatar Mədəniyyət və Təhsil Birliyinə başçılıq edib. Tanınmış tatar, polyak, Azərbaycan ictimai və dövlət xadimi, tarixçi, jurnalist Leon Kriçinskinin qardaşıdır.

1941-ci ildə (bəzi mənbələrdə 1942-ci ildə) Smolenskdə qətlə yetirilib.

Qeyd edək ki, O.Kriçinski Azərbaycanın Ədliyə Nazirliyi sistemində çalışdığı dövrdə Qafqaz Konfederasiyası ideyasının əsas müəlliflərindən idi. 1920-ci ilin aprelin 7-də Tiflisdə keçirilən konfransda üç Cənubi Qafqaz dövlətinin vahid konfederasiyasında birləşmək ideyası əsas müzakirə mövqeyi idi. Toplantının əsas məqsədlərindən biri də Cənubi Qafqazdakı bəzi mübahisəli məsələləri danışıqlar yolu ilə həll etmək

idi. Konfransda Azərbaycanı aşağıdakılar təmsil edirdi: Azərbaycan Parlamentinin sədri H.Ağayev (heyətin başçısı), Xarici İşlər Naziri, Gürcüstan hökuməti yanındakı diplomatik nümayəndə F.Vəkilov və Ədliyə Nazirinin müavini O.Kriçinski. Gürcüstan və Ermənistanın da müvafiq nümayəndələri konfransda təmsil olunurdular.

Toplantı öz işini yarımçıq dayandırsa da, Azərbaycan nümayəndə heyətinin təkidi ilə üç Cənubi Qafqaz dövləti arasında əlqələrin inkişaf etdirilməsi ilə bağlı "Zaqafqaziya Respublikaları Şurası" adlı qurumun yaradılması qərara alınmışdı. Həmin Şuranın layihəsini hazırlayan isə O.Kriçinski idi. 24 maddəlik həmin layihə konfransın 1920-ci ilin 22 aprelində keçirilən iclasında təsdiqlənmişdi.

O.Kriçinski Azərbaycan Rusiya bolşevikləri tərəfindən işğal edildikdən sonra bu ölkəni tərk etmişdir.

O.Kriçinski Azərbaycanı tərk etdikdən sonrakı dövrdə Baş Nazir F.X.Xoyskinin ölümünün 15 illiyi münasibəti ilə bir məqalə də yazmışdır. Həmin yazı "Severniy Kavkaz" jurnalının 1935-ci ildəki 14-cü sayında çap edilmişdir. O, bu yazısında F.X.Xoyskinin erməni terrorçusu tərəfindən qətlə yetirildiyini də yazmışdı.

O.Kriçinski "Azərbaycanın müstəqilliyinin 15 illiyinə" adlı digər bir yazısında isə Cümhuriyət dövrü ilə bağlı düşüncələrini qələmə almışdır.

1939-cu ildə sovet qoşunları Vilnonu – Vilnüsü işğal etdikdə O.Kriçinski həbs olunub Sibirə göndərilmişdir. O, 1941-ci ildə (bəzi mənbələrdə 1942-ci ildə) burada vəfat etmişdir.[48]

[48] *V.Quliyev. Polşa tatarları Azərbaycan dövlətçiliyinin xidmətində: Kriçinski qardaşları. "525-ci qəzet", 26 dekabr 2008-ci il.*



*O.Kriçinski sovet həbsxanasında*

# MASEY ALEKSANDROVİÇ SULKEVİÇ

## (1865 – 1920)



Azərbaycan Milli Ordusunun yaradılmasında və inkişafında böyük xidmətləri olan Masey Aleksandroviç Sulkeviç XIV yüzillikdə Krımdan köç edib indiki Litva ərazisində məskunlaşan tatar ailəsində doğulmuşdur. Onun doğulduğu bölgə belə adlanırdı: Kemeyşi, Lida qəzası, Viena quberniyası.

Bəs onlar nə üçün daha çox “Polşa tatarları” adlanır? V.Quliyev yazır: “Bu azsaylı etnik qrup müxtəlif qaynaqlarda “Litva tatarları”, “Polşa tatarları”, “Polşa müsəlmanları”, “Lipkalar” (Litva tatarları anlamında) kimi fərqli adlarda xatırlanıb. Lakin XX əsrin əvvəllərindən etibarən onların Polşa tatarları kimi təqdim olunması meyli daha üstünlük qazanmağa başlayıb... Çünki Böyük Litva knyazlığı da daxil olmaqla tatarların kompakt halda məskunlaşdıqları tarixi ərazilərin hamısı bugünkü Polşanın sələfi sayılan Reç Pospolita dövlətinin sərhədləri içərisində idi”.[49]

M.Sulkeviçin adı mənbələrdə müxtəlif olaraq yazılır: Matvey, Masey, Süleyman, Məhəmməd və s. Lakin arxiv

[49] *V.Quliyev. Polşa tatarları Azərbaycan dövlətçiliyinin xidmətində: Kriçinski qardaşları. “525-ci qəzet”, 9 dekabr 2006-cı il*

sənədlərində və onun həbsi zamanı yazılan protokol və sənədlərdə Matvey olaraq qeyd edilib.

M.Sulkeviçin atası Aleksandr da Qusar (süvari) alayının polkovniki olub.

M.Sulkeviç 1865-ci ilin iyunun 20-də Kemeyşi adlı ailə malikanəsində doğulmuşdur. Tədqiqatçı-alim V.Quliyev M.Sulkeviçlə bağlı araşdırmalarında yazır: "Ailə mühitində tatar dili unudulsa da, onu kiçik yaşlarından əsl tatar və müsəlman kimi böyütmüşdülər. Böyük Litva knyazlığında və Polşada yaşayan tatar əsilzadələrinin əksəriyyəti kimi onun da gələcək həyat yolu əvvəlcədən müəyyənləşmişdir – Masey kiçik yaşlarından hərbçi kimi tərbiyə olunmuşdur".

M.Sulkeviç ilk hərbi təhsilini Voronej Kadet Korpusunda və Peterburqda Mixaylovsk Artilleriya Məktəbində almış, 1888-ci ilin oktyabrın 3-də Rusiya imperiyasının Baş Qərargah Akademiyasına daxil olmuşdur. O, 1883-cü ildə çar Rusiyası ordusunda xidmətə başlayıb və qısa zamanda aşağıdakı rütbələri almışdır: 1886-cı ildə ilk zabit rütbəsi, 1899-cu ildə podpolkovnik, 1910-cu ildə general-mayor, 1915-ci ildə general-leytenant.

M.Sulkeviç hərbi xidmətinə görə "Müqəddəs Stanislav" ordeninə layiq görülmüş və Odessa Hərbi Dairəsi Qərargahının baş yavəri vəzifəsinə təyin olunmuşdur.

O, 1904-1905-ci illərdə Rusiya-Yaponiya müharibəsində iştirak etmiş, xidmətlərinə görə 2-ci dərəcəli "Müqəddəs Anna" və 4-cü dərəcəli "Müqəddəs Vladimir" ordenləri ilə təltif edilmişdir.

M.Sulkeviç 1912-ci ildə 7-ci Ordu korpusunun qərargah rəisi, Birinci Dünya müharibəsi illərində isə Müsəlman korpusunun komandiri olmuşdur.

Onun Azərbaycan Ordusunun qurucuları olan general Səməd bəy Mehmandarov və Əliağa Şıxlinski ilə tanışlığı da məhz Port-Artur cəbhəsində olmuşdur.

1917-ci ilin Fevral-burjua inqilabından sonra Rusiya əsarətində yaşayan türk-müsəlman toplumun dirçəlməsində 1917-ci ilin mayın 1-11-də keçirilən Ümumrusiya Müsəlmanları qurultayının böyük rolu oldu. Bu qurultayda türk-müsəlman əhalisinin təhlükəsizliyinin qorunması üçün "Hərbi qurumlar haqqında" qətnamə qəbul edildi. 1917-ci ilin 21-31 iyulunda keçirilən digər Ümumrusiya qurultayında isə Əsgəri Şuranın yaradılması qərara alındı.

Qurultayın qərarı ilə müsəlman əsgər və zabitlərdən ibarət hərbi birləşmələrin formalaşdırılması işi Masey Sulkeviçə tapşırıldı.

M.Sulkeviçin fəaliyyətinin bir mühüm dövrü də Krımla bağlıdır. O, 1918-ci ildə Krıma gəlmiş və burada yaradılmış Krım Diyar Hökumətinin sədri (Baş naziri), Daxili və Hərbi İşlər naziri seçilmişdir. Bu prosesdə almanların ona böyük dəstəyi olmuşdur.

Alman qoşunlarının Krımdan getməsindən sonra A.Denikin Krımı işğal etdi və bundan sonra M.Sulkeviç 1918-ci ilin noyabrın 15-də məcbur olub hakimiyyəti Solomon Krımın başçılıq etdiyi ikinci Krım Diyar Hökumətinə verdi.

Krımda qazandığı böyük nüfuza görə M.Sulkeviçi sonradan tatarlar hörmət əlaməti olaraq Süleyman Paşa adlandırırdılar. [50]

Bu hadisədən sonra M.Sulkeviç Azərbaycana gəlmiş və burada Məhəmməd adı ilə tanınmışdır. O, əvvəlcə Gəncədə Birinci Müsəlman Korpusunun komandiri olub, 1919-cu ilin

[50] *Ş.Nəzirli. Güllələnmiş Azərbaycan generalları. B., 2006.*


Военная

29 147 14

САЛЬЯНЫ

Начальнику Ленкоранскаго отряда

Генералу САЛИМОВУ

Охрану русскаго населенія отъ вооруженнаго враждебнаго нападенія
жна принять на себя администрація но не сами жители, поведеніе
орыхъ весьма двусмысленное, а по послѣдней резолюціи краеваго съѣзда
ызывающее вотъ тѣ причины по которымъ послѣдовало измѣненіе
щанія воззванія 3688

Начгенштаб

Azərbaycan Cümhuriyyəti dövründə
M.Sulkeviçin fəaliyyətinə aid sənəd

martın 26-da Hərbi nazirliyin 147 saylı əmri ilə Azərbaycan Ordusunun Baş Qərargah rəisi təyin edilmişdir.[51]

Qeyd edək ki, onun həyat yoldaşı Məryəm xanım H.Z.Tağıyevin Qızlar məktəbində işləyirdi və o, "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti"nin fəal üzvlərindən idi. Bu cəmiyyətin sədri ilk vaxtlar H.Z.Tağıyevin xanımı Sona Tağıyeva, sonralar isə M.Muxtarovun həyat yoldaşı Liza Muxtarova olmuşdur.

M.Sulkeviç 1919-cu ilin iyunun 9-da Azərbaycan Parlamentinin tövsiyyəsi ilə Nazirlər Şurasının sədri N.Yusifbəylinin fəallığı ilə yaradılan Dövlət Komitəsinin tərkibinə daxil idi.

**1919-cu ilin iyununda Azərbaycanla Gürcüstan arasında bağlanan hərbi müqaviləni hökumət adından M.Sulkeviç də imzalamışdır.**

[51] *N.Yaqublu. Cümhuriyyət Qurucuları. B., Nurlar, 2018, s.394.*

Azərbaycan Respublikasının Dövlət Arxivində M.Sulkeviçin də imzası olan ciddi əhəmiyyətli hərbi sənədlər saxlanılmaqdadır. Bu sənədlər onun hərbi sərkərdə olaraq fəaliyyətinin öyrənilməsinə kömək edir.

M.Sulkeviç tələbkar komandir və Baş Qərargah rəisi idi. Onun imzası ilə Gəncədə 1919-cu ilin 17 mayında hazırlanan 5 saylı əmrdə belə qeydlər var: "Səhv həmişə mümkündür. Dövlət xəzinəsindən ayrılan xəzinə pulu birbaşa təyinatı üzrə sərf olunmalı və sənədlərdə təsdiq edilməlidir. Ordu və xəzinə maraqlarına qayğı çox olarsa, bunu edənlərə tərif və təşəkkür daha çox olar". [52]

**M.Sulkeviç Azərbaycan Cümhuriyyəti ordusunun milliləşməsinə də önəmli əhəmiyyət verirdi. Onun Baş Qərargah rəisi olaraq 1919-cu ilin avqustun 10-da verdiyi 561 saylı əmrdə maraqlı qeydlər var. Əmrdə göstərilir ki, Azərbaycan ordusunun piyada və süvari alayları, eləcə də ayrıca batalyonları, hərbi məktəbləri üçün hazırlanan bayrağın bir tərəfində "Azərbaycan", digər tərəfində isə "Kömək Allahdandır, qələbə yaxındır!" sözləri yazılmalıdır. Göstərilirdi ki, bayrağın parçasının kənarındakı zolaqlar Teymurləngin Səmərqənddəki qəbrində olan naxışlar kimi olmalıdır"**. [53]

1919-cu ilin 19 avqustunda Azərbaycan Respublikası Hərbi Nazirliyinin digər əmrində qeyd olunur: "Hərbi təyyarəçi Əfşar xan Teymurçin leytenant rütbəsi ilə Azərbaycan Respublikası ordusuna qəbul olunur və avqustun 17-dən kiçik zabit maaşı almaqla bütün ərzaq, geyimlə təmin olunur".[54]

[52] *Azərbaycan Respublikası Dövlət Arxivi, f.2894, s.1, i.4, v.135*
[53] *Azərbaycan Respublikası Dövlət Arxivi, f.2894, s.1, i.4, v.149*
[54] *Azərbaycan Respublikası Dövlət Arxivi, f.2894, s.1, i.4, v.135*


Телефонограмма

Начальнику Артиллерийского Управления капит. [illegible]
2ой пехотной дивизии.

Военным приказом: командиру легкой батареи, расположенной в Сальянских казармах, перевести приведенные из Ленкорани три орудия и пулеметы к себе в казармы и немедленно приступить к обучению прислуги к этим орудиям, включив в таковую из состава батареи, а если не хватит, то взять из полка подходящих людей, о чем которым исполнить немедленно. № 3715

Ген. Сулькевич

Копия
Подлинный подписал
[illegible]

Azərbaycan Cümhuriyyəti dövründə
M.Sulkeviçin fəaliyyətinə aid sənəd
– oz imzası ilə məktubu.

Əmri Azərbaycanın Hərbi Naziri, Artilleriya generalı S.Mehmandarov və Baş Qərargah rəisi general-leytenant M.Sulkeviç imzalamışdılar.

Azərbaycan Respublikası Hərbi Nazirliyinin Artilleriya generalı Ə.Şıxlinski və M.Sulkeviç tərəfindən imzalanmış 24 sentyabr 1919-cu il tarixli, 433 saylı əmrdə Baş Qərargahda xidmət üçün gənc zabitlərin hazırlanması məqsədi ilə 1-ci və 2-ci piyada diviziyasından 3 zabitin Baş Qərargahın Baş İdarəsinə göndərilməsi qeyd olunmuşdur."[55]

Hərbi Nazir S.Mehmandarovun və Baş Qərargah rəisi M.Sulkeviçin 7 oktyabr 1919-cu il tarixli, 459 saylı əmrində polkovnik Koçladzenin Hərbi Dəmiryol məktəbinə rəis təyin olunması qeyd edilmişdir.

**Bu əmrdən məlum olur ki, Azərbaycan Cümhuriyyəti dövründə ayrıca Hərbi Dəmiryolu məktəbi də fəaliyyət göstərmişdir.[56]**

**Azərbaycanda qayda-qanun yaradılması, ictimai-siyasi asayişin qorunmasının gücləndməsində Azərbaycan Hərbi Nazirliyi böyük xidmətlər göstərirdi. Hərbi Nazir S.Mehmandarovun və Baş Qərargah rəisi M.Sulkeviçin 8 dekabr 1919-cu ildə hazırladığı 564 saylı əmrdə Dövlət Müdafiə Komitəsinin 27 noyabr tarixli qərarı əsasında respublikanın bir çox rayonlarında daimi milislərin (polislərin – red.) təşkilinə başlanılması qeyd olunurdu".[57]**

**Azərbaycan Cümhuriyyəti dövründə Ermənistanla sərhəd ərazilərdə, Naxçıvanda, Dağlıq Qarabağda və Muğan bölgələrində hərbi əməliyyatların hazırlanıb həyata keçi-**

---

[55] *Azərbaycan Respublikası Dövlət Arxivi, f.2894, s.1, i.4, v.138*

[56] *Azərbaycan Respublikası Dövlət Arxivi, f.2894, s.1, i.4, v.139*

[57] *Azərbaycan Respublikası Dövlət Arxivi, f.2894, s.1, i.4, v.141*

rilməsində, yeni yaranmış dövlətin ərazi bütövlüyünün qorunmasında M.Sulkeviç yaxından iştirak edirdi.

1919-cu ilin 7 iyulunda Azərbaycanın Hərbi naziri SMehmandarovun və Baş Qərargah rəisi M.Sulkeviçin imzaladığı, Baş Nazir N.Yusifbəyliyə ünvanlanan raportda Denikin qüvvələrinin fəallaşdığı şəraitdə Xaçmaz istiqamətinin və ermənilərin təhlükə yaratdıqarı Qarabağ və Gəncəbasar bölgələrinin nəzarətsiz saxlanılmaması qeyd olunurdu.

M.Sulkeviçin Qarabağın general-qubernatoru X.Sultanova 7 sentyabr 1919-cu il tarixində göndərdiiyi məktubda ermənilərin Qarabağın tam şəkildə itirilməsi ilə barışa bilməyəcəyi, bunun üçün bütün imkanlardan istifadəyə çalışacağı qeyd olunurdu. Bununla əlaqədar o, ermənilərə nəzarət məqsədi ilə Xankəndindəki, gələcəkdə isə Gorusdakı qarnizonları tam tərkibdə öz yerlərində saxlamağı tələb edirdi.

M.Sulkeviç yerli əhali arasında olan bacarıqlı, döyüşkən ruhlu insanlardan piyada və süvari partizan dəstələrinin təşkil olunmasını da vacib sayırdı. Onun təklifinə görə, 20-40 yaşlı sakinlərdən ibarət olan 4 batalyon yaradıb onlardan ərazilərin müdafiəsində istifadə edilməli idi.

M.Sulkeviçin və digər Azərbaycan generallarının səyi ilə güclü bir ordunun formalaşdığı dövrdə Rusiya bolşevikləri 60 minlik (bəzən 70 min də göstərilir) güclü hərbi qüvvələrlə Azərbaycanı işğal etdilər.

Azərbaycanın işğalının ilk günlərindən ordu generallarını həbsə almağa başladılar. M.Sulkeviçi 1920-ci ilin mayın 8-də həbs etdilər.


ДЕЛО

№ 182

А̃ЗЕР. СОВ. СОЦ. РЕСПУБЛИКА

Чрезвычайная Комиссия.

Начато 192 года

Кончено 192 года

ПРИЛОЖЕНИЕ:

арх-ПС-17046.

*Bu istintaq işi Azərbaycan Cümhuriyyəti ordusunun Baş Qərargah rəisi Masey Sulkeviçə aiddir.İstintaqdan məlum olur ki, o, 1920-ci ilin mayın 8-də həbs edilib. Bu ünvanda yaşayıb: Bakı şəhəri, Telefonnaya küçəsi, 6.*

***Azərbaycan Respublikadsı Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi: M.Sulkeviçin istintaq işi, PR N17046. v.8-9***

Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətində M.Sulkeviçə məxsus olan PS-17-46 saylı istintaq işi saxlanılır. Bu sənədlərdə onu adı **Matvey** olaraq qeyd olunub.

Məlum olur ki, M.Sulkeviçi RSFSR-in XI Ordusunun Hərbi İnqilabi Şurası yanında Xüsusi şöbəsinin 438 saylı həbs vərəqi əsasında tutublar.

Həbs vərəqində onun 54 yaşının olduğu, Bakıda Telefonlu küçəsi-6, 10 saylı evdə yaşadığı və digər məlumatlar qeyd edilib.[58]

Məlum olur ki, həbs müddətində M.Sulkeviçlə əlaqədar istintaq aparılmayıb. Həmin qovluqda 1920-ci ilin sentyabrında Moskvadan Ümumittifaq Fövqəladə Komissiyasının Xüsusi şöbəsindən göndərilmiş bir teleqramda Sulkeviç haqda məlumat soruşulur. Həmin teleqramın üstündə karandaşla yazılıb: "güllələnib".[59]

M.Sulkeviçin hansı şəraitdə güllələnməsi haqqında məlumatı M.Ə.Rəsulzadənin 1923-cü ildə İstanbulda nəşr etdiyi "Azərbaycan Cümhuriyyəti" kitabından öyrənmək mümkündür.

DTX-nin arxivində saxlanılan 17 iyun 1920-ci il tarixli arayışda onun "əksinqilabi fəaliyyətdə" ittiham əsasında güllələnib işinin arxivə verildiyi qeyd olunub .

**Bəzi tədqiqatlarda onun güllələnərkən bu sözləri dediyi qeyd olunmaqdadır: "Xoşbəxtəm ki, Müsəlman Ordusunun zabiti kimi ölürəm!".**[60]

---

[58] *Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi, M.Sulkeviçin PS – 17046 saylı istintaq işi, v.1*

[59] *Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi, M.Sulkeviçin PS – 17046 saylı istintaq işi, v.9*

[60] *Ş.Nəzirli.Güllələnmiş Azərbaycan generalları. B., 2006, s.64*


Р. С. Ф. С. Р.

…ый Отдел при Револ. Воен. Совете XI армии

Арестный Лист № 438

„8“ Мая 1920г.

…Сулькевичъ Имя и отчество Матвей-Ал.

Телефонная 6 кв 10

54 г.

…ование

…ссия

…ботает и долго ли на службе в А.С.С.Р.

…ность

…т ли членом какой либо организации и долго ли

…ия средства живет

…ли семью

…естован

…ком ордере

Подпись:

Принял

*M.Sulkeviç 1920-ci ilin iyulun 15-də*
*heç bir istintaq keçirilmədən*
*54 yaşında güllələnib.*

M.Sulkeviçin güllələnməsi ilə bağlı bir məlumat da Ş.Nəzirlinin "Güllələnmiş Azərbaycan generalları" kitabında Bakıda bolşeviklərin həbs etdiyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Diplomatik Departamenti Ümumi şöbəsinin müdiri Vyaçeslav Stanislavoviç Rudzinski tərəfindən belə təqdim olunur: "Xudahafizləşərkən o, tam yəqinliklə bildirdi ki, onu güllələməyə aparırlar. Özümüzün sağ qalacağımıza heç bir ümidimiz olmasa da, ona təsəlli verirdik. Onu da qeyd etməliyəm ki, general özünü çox ləyaqətli və mərdanə aparırdı. Bir neçə gündən sonra qəzetlərdə "əksinqilabi fəaliyyətdə" ittiham olunanların güllələnməsi haqqında məlumatı oxuduq. *Bu siyahıda general-leytenant Məmməd bəy (Masey — red) Sulkeviçin familiyası da vardı!*".[61]

[61] *Ş.Nəzirli.Güllələnmiş Azərbaycan generalları. B., 2006, s.64*



# STANİSLAV STANİSLAVOVİÇ VONSOVİÇ
## (1889 –?)

Azərbaycan Parlamentində Polyak Komitəsinin nümayəndəsi Stanislav Stanislavoviç Vonsoviç 1889-cu ilin mayın 8-də anadan olub. Zadəgan ailəsinə mənsub idi. Peterburq Universitetinin hüquq fakultəsini bitirib. Çar Rusiyası ordusunda zabit olaraq xidmət edib.[62]

S.S.Vonsoviç Polşanın Bakıdakı Konsul agentliyinin katibi vəzifəsini yerinə yetirib.

O, Azərbaycan Parlamentində Qanunvericilik komissiyasının katibi kimi çalışıb.

S.S.Vonsoviç 1920-ci ilin avqustun 14-də rus bolşevikləri tərəfindən həbs edilib. (1, v.1)

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətində S.S.Vonsoviçə aid olan PR-20193 saylı istintaq işindən məlum olur ki, o, 1920-ci ilin dekabrına qədər həbsdə saxlanılıb.S.S.Vonsoviç həbs edilərkən həyat yoldaşı 28 yaşında, oğlu Stanislav isə 5 yaşında olub.

S.S.Vonsoviç istintaqa verdiyi ifadədə Bakıda çoxdan yaşadığını və buradakı polyakların hamısını tanıdığını bildirmişdir. **S.S.Vonsoviç sonradan həbsdən azad edilmişdir.**[63]

---

[62] *N.Yaqublu.Cümhuriyyət Qurucuları.B., Nurlar, 2018, s.468-469*

[63] *Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi, S.S.Vonsoviçin PR – 20193 saylı istintaq işi, v.20*


Архивный № 68

АЗЕРБАЙДЖАНСКОЕ
ГОСУДАРСТВЕННОЕ ПОЛИТИЧЕСКОЕ УПРАВЛЕНИЕ
ПРИ СОВНАРКОМЕ

ДЕЛО №

№

№

По обвинению гр.

Начато 14 августа 1930 г.
Окончено 15 декабря 1930 г.
На листах

Архивн. № 687

Передачу взятых из УГСО архивных дел в другие отд. Аз.ГПУ и другие органы хотя бы и временно, производить ис-

*Stanislav Vonsoviçə aid istintaq sənədləri:*
*həbs olunması haqqında order № 399.*


Р. С. Ф. С. Р.
собый Отдел при Револ. Воен. Совете XI армии
Арестный Лист № 1876
14/VII 20 г. „ 19 г.
милия Вонсович Имя и отчество Станислав Станиславович
рес: Старополицейская 13-15 г. Баку
зраст 31
бразование Высшее
офессия Юрист
работает и долго ли Секретарь
ртийность беспартийный
стоит ли членом какой либо организации и долго ли
Союза Советских организаций
какие средства живет На заработок
еет ли семью есть
м арестован Петросян
каком основании по ордеру № 339
Подпись: С. Вонсович
иметы:
Зарегистрировано 3/X-20 г.
Сдал: Принял

*Həbs vərəqinin sayı - 1876. Burada onun yaşı və təhsili haqqında məlumatlar vardır. Həbsdən azad edilib. Sonrakı taleyi naməlumdur.*

***Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Arxivi: S.S.Vonsoviçin istintaq işi, PR N 20193, v.20***

## Polşa əhalisinin nümayəndəsi S.S.Vonsoviçin Azərbaycan Parlamentində (1918-1920) bəyanatı

**S.S.Vonsoviç:** "Polşa əhalisi adından, Parlament üzvlərinin simasında Azərbaycanda yaşayan bütün xalqları, sədrlik hüququ ilə bu hakimiyyətin tamhüquqlu daşıyıcısı olan Parlamenti, eləcə də çətin dövrlərdə dövlət quruculuğunun ağırlığını öz çiyinlərində daşıyan bütün şəxsləri və təşkilatları salamlayıram.

Əhalinin kiçik bir qrupunun nümayəndəsi olaraq, Parlamentdəki siyasi partiyaların qüvvələr nisbətini və onların vəzifələrini özüm üçün kifayət qədər araşdırmadan, parlament işimdə riayət edəcəyim davranış xəttinə dair ətraflı bəyannamə təqdim etməyi mümkün hesab etmirəm. Bununla belə, özümün buna münasibətimin ümumi cəhətlərini izah etməyi özümə borc bilirəm.

Azərbaycan Respublikası adlanan dövlət quruluşu, hələ ki, hüquqi görkəm almamış sosial-tarixi yaranış amilidir, buna görə də, ilk növbədə, Azərbaycanın dövlət orqanlarının hakimiyyət hüdudlarını və səlahiyyətlərini müəyyən etmək və onların qarşılıqlı münasibətlərini tənzimləmək lazımdır. Parlament hökuməti seçərkən ona bütünlüklə hakimiyyəti yox, yalnız icra hakimiyyəti verməli və onun üzərinə özü qarşısında məsuliyyət qoymalıdır.

Yalnız hökuməti seçməklə və ehtimal olunan təsis yığıncağının toplanmasına qədər qanunvericilikdən kənarlaşmaqla Parlament, istənilən tərəfdən hakimiyyət iddialarının

cərəyan etdiyi hazırki dövrdə son dərəcə zəruri olan mənəvi nüfuzdan hökuməti məhrum etmiş olar. Daha sonra, dövlət vəzifələrinin icrasına başlayarkən Parlament daxili sülhün bərqərar olması məqsədi ilə, ilk növbədə, istər ictimai, istərsə də şəxsi hüquq sahəsində qanunun gücünü möhkəmləndirməlidir. Bu istiqamətdə Azərbaycan Respublikasının yaranmasından əvvəl mövcud olan qanunvericiliyinin ardıcıl surətdə ötürülməsi qaydasını və hüdudlarını müəyyən edən hüquq normalarının yaradılması son dərəcə zəruridir.

Hüquq qaydasının mənafeyi çərçivəsində, vətəndaşların sərbəst fəaliyyətinin bütün sahələrini dövlət müdaxiləsindən təcrid edən möhkəm hüquqi zəmanətlərin yaradılması da çox vacibdir. Bu zəmanətlər şəxsiyyətin və ictimaiyyətin inkişafını təmin edir. Dövlətin sosial vəzifələrinin geniş demokratik əsaslar üzərində həyata keçirilməsini tam dəstəkləyərək və bu vəzifələrin qanunvericilik yolu ilə həyata keçirilməsini arzulayaraq düşünürəm ki, hazırda cərəyan edən hadisələr səbəbindən bu vəzifələr öncül mövqe tutmamalıdır, çünki hakimiyyət uğrunda gərgin sinfi mübarizə gedərkən elementar hüquqi qaydalar mövcud olmadan geniş sosial islahatları dövlət miqyasında həyata keçirmək olmaz, çünki bu, dövlətdə məhvedici mərkəzdənqaçma qüvvələri yarada bilər. Xalqların özünü müəyyənləşdirməyə başlaması sonuncu beşillik müharibə zamanı bəşəriyyətin fəthinə çevrilsə də, son dərəcə qeyri-müəyyən olaraq qalır. Bu başlanğıca istənilən məzmunu sığışdırmaq olar, amma mənim fikrimcə, bu başlanğıc mədəni fəthlə tanına bilər, çünki bu, o mənada anlaşılmalıdır ki, heç bir millət başqa bir millətin istibdadına məruz qala və onun köləsinə çevrilə bilməz, hər bir millət öz ərazisinin hüdudları çərçivəsində özünün müstəqil siyasi mövcudluğunu

təmin etməli *, bu zaman həmin ərazidə məskunlaşmış digər xalqların siyasi hüquqlarına təsir göstərməməli və məhdudlaşdırmamalıdır. Yalnız bu mənada xalqların özünü müəyyənləşdirməsinin başlanğıcı müasir mədəni bəşəriyyət üçün məqbul hesab edilə bilər və bu, müstəqil siyasi məişətə malik olmaq istəyən hər bir millət tərəfindən həyata keçirilməlidir. Əminəm ki, Azərbaycanda say baxımından üstünlük təşkil edən xalq gələcəkdə dövlət quruculuğunda başqa yol tutmayacaq, Azərbaycanda məskunlaşmış bütün xalqlarla dostluq şəraitində birgə çalışaraq həqiqi demokratik və müstəqil dövlət yaradacaq və bu dövlət qonaqpərvərcəsinə Avropa xalqları ailəsinə qəbul ediləcək.

Bir daha Azərbaycanda məskunlaşmış bütün millətləri salamlayıram.

(A l q ı ş l a r )”. [64]

[64] *Azərbaycan Respublikası Dövlət Arxivi, f.895, s.11, iş.1, v.62*

# Fövqəladə Təhqiqat Komissiyasının yaradılması və polyakların burada fəaliyyəti

1918-ci ilin iyul ayının 15-də Azərbaycan Cümhuriyyəti hökuməti Gəncədə keçirilən iclasında azərbaycanlılara qarşı zorakılıq hallarının araşdırılması üçün Fövqəladə Təhqiqat Komissiyası yaratmaq haqqında məsələ müzakirə etdi.

Həmin ilin avqustun 31-də Azərbaycan hökumətinin qərarına əsasən 7 nəfərdən ibarət Fövqəladə Təhqiqat (istintaq) komissiyası yaradıldı. Komissiyanın sədri andlı iclasçı – Ələkbər bəy Xasməmmədov, üzvləri isə Gəncə dairə məhkəməsinin üzvləri – İsmayıl bəy Şahmalıyev, Andrey Klimenttiy Novatski (polyak), Çeslav Kolossovski (polyak), həmin dairə məhkəməsi prokurorunun müavini Nəsrəddin bəy Səfikürdski, həqiqi milli müşavir V.V.Qubvilli və müəllim Mirzə Cavad Axundzadə təyin olunur.

Fövqəladə Təhqiqat Komissiyası 1920-ci ilin aprelin 27-nə Azərbaycanın Rusiya bolşevikləri tərəfindən işğalına qədər 20 ay müddətində fəaliyyət göstərmişdir.

Bu müddət ərzində Bakıda, Qubada, Şamaxıda, Gəncə Quberniyasının 4 qəzasında – Cavanşir, Cəbrayıl, Şuşa və Zəngəzurda, Qazaxda, Nuxada (Şəki) və digər bölgələrdə ermənilərin azərbaycanlılara qarşı törətdikləri qətliamlar, zora-

kılıqlar, vəhşiliklər haqqında sübutlar, şahid ifadələri, fotolar və təhqiqat materialları toplamışdılar.

Bu sənəd və materiallar əsasında azərbaycanlılara qarşı törədilmiş cinayət hərəkətlərinin təşkilatçıları və iştirakçıları haqqında cinayət işi açılaraq istintaqa cəlb olunmuşdular.

# ANDREY KLİMENTİY NOVATSKİ

## (1866-?)

1866-cı ildə anadan olub.Varşava Universitetini bitirib.1899-1902-ci illərdə Varşavada məhkəmə-istintaq orqanlarında çalışıb.1903-1907-ci illərdə Bakı Dairə Məhkəməsi Şamaxı bölməsində hakim olaraq çalışıb. 1907-ci ilin fevralından 1908-ci ilin yanvarına qədər Bakı şəhəri 1-ci istintaq sahəsinin müdiri olub. 1908-1918-ci illərdə Tiflis şəhərində hakim köməkçisi vəzifəsində çalışıb.

1918-ci ilin fevralında Yelizavetpol (Gəncə) dairə məhkəməsinin üzvü təyin edilib.1918-ci ilin iyulunda Fövqəladə İstintaq Komissiyasının üzvü olub.Komissiyanın fəal üzvülərindən biri kimi istitaq qrupuna başçılıq etmiş və Şamaxıda, Qubada ermənilərin törətdiyi cinayətləri araşdırmışdır.

1919-cu ilin aprelin 1-də A.K.Novatski Bakı Dairə məhkəməsinin üzvü təyin edilir.1920-ci ilin mayından Azərbaycan SSR-in Ədliyyə Xalq Komissarlığında məhkəmə orqanlarında çalışır, 5-ci rayon xalq məhkəməsinin katibi işləyir. Sonrakı taleyi haqqında məlumat yoxdur.[65]

[65] *С. Рустамова -Тогиди. Азербайджанские погромы в Шемахе. 1918 год. (На основе документов Чрезвычайной Следственной Комиссии Азербайджанской Демократической Республики). М.: АП "Столица", 2016, с.465; A.Paşayev. Açılmamış səhifələrin izi ilə. B., "Azərbaycan" nəşriyyatı, 2001, s.93.*

# ÇESLAV KOLOSSOVSKİ

**(1874-?)**

Varşava Universitetinin hüquq fakültəsini bitirib. 1900-1903-cü illərdə Varşava şəhərində və Varşava dairəsində məhkəmə-istintaq orqanlarında çalışıb.

1903-cü ildən Bakı, Elizavetpol (Gəncə) və Yerevan Quberniyalarında müxtəliv vəzifələrdə çalışıb-hakim köməkçisi, hakimin vəzifəsini icra edən, Quberniya idarəsinin hüquq şöbəsində məsləhətçi. Çəbrayıl, Zəngəzur, Sisiyan, Qaryagin və Elizavetpolda istintaq sahələrində çalışıb.1910-cu ilin fevralından elizavetpol quberniya idarəsində məsləhətçi, 1918-ci ilin avqustun 4-dən isə Elizavetpol Dairə məhkəməsində fəxri hakim işləmişdir.

1918-ci ilin 8 dekabrından Fövqəladə İstintaq Komissiyasının üzvü olmuşdur.1919-cu ilin yanvarın 24-də Gəncə Dairə Məhkəməsinin prokuror köməkçisi, həmin ilin iyunundan Bakı Dairə məhkəməsinə eyni vəzifəyə keçirilmişdir.

Sovet dövründə Ədliyyə Xalq Komissarlığı orqanlarında çalışıb. Sonrakı taleyi haqqında məlumat yoxdur.[66]

[66] *С.Рустамова -Тогиди. Азербайджанские погромы в Шемахе. 1918 год. (На основе документов Чрезвычайной Следственной Комиссии Азербайджанской Демократической Республики). М.: АП “Столица”, 2016, с.453.*

# AZƏRBAYCANDA FƏALİYYƏT GÖSTƏRMİŞ POLYAK MEMARLAR



## YOZEF QOSLAVSKİ

**(1865-1904)**

Yozef Qoslavski Varşavada anadan olub. Peterburq şəhərində Mülki Mühəndislər İnstitutunu bitirib. 1891-ci ildə Bakıya gəlib, bir il sonra şəhərin Baş memarı olub. O, eyni zamanda neft milyonçusu H.Z.Tağıyevin sifarişi ilə layihələr də hazırlayırdı.

Y.Qoslavskinin Bakıda layihələşdirdiyi binalar:

1. Bakı Şəhər Dumasının binası, Nikolayevski küçəsi-4 (hazırda İstiqlaliyət küçəsi. Burada Bakı şəhər İcra Hakimiyəti yerləşir). Bina 1899-1904-cü illərdə tikilib.

2. Nikolayevski 27 küçəsində yerləşən (hazırda İstiqlaliyət küçəsi) yaşayan yaşayış binası, 1893-1894.

3. Nikolayevski 8 küçəsində (hazırda İstiqlaliyət küçəsi) yerləşən Müsəlman Qız Məktəbi) (Azərbaycan Xalq Cümhuriyəti dövründə Parlamentin binası, hazırda burada Elmlər Akademiyasının Əlyazmalar İnstitutu yerləşir), 1898-1901.

4. Qorçakovskaya 4 küçəsində (hazırda Tağıyev) H.Z.Tağıyev Sarayı (hazırda burada Azərbaycan Tarix Muzeyi yerləşir), 1893-1902).

5. Vorontsov 19 küçəsində yerləşən Məlikovun üçmərtəbəli yaşayış evi (hazırda İ.Səfərli küçəsi), 1893-1897.

6. H.Z.Tağıyevin Abşeronun Mərdəkan kəndindəki villası (bina Botanika bağının sahəsində yerləşir), 1893-1895).

7. H.Z.Tağıyevin Abşeronun Zığ qəsəbəsində toxuculuq fabriki, 1896-1899.



*Y.Qoslavski ailə üzvləri ilə*



# YOZEF PLOŞKO
## (1867-1931)

Yozef Ploşko Peterburq Mülki Mühəndislər İnstitutunda oxuyub. 1895-ci ildə təhsilini bitirdikdən sonra Kiyevdə iki il işləyib və oradan Bakıya gəlib. 1907-1910-cu illərdə Bakının Baş memarı olub. O, Azərbaycanın neft maqnatları olan Murtuza Muxtarov və Ağa Musa Nağıyevin "saray" memarı kimi fəaliyyət göstərib. O, eyni zamanda neft maqnatları olan polyak ailəsi Rılskilər üçün də layihələr hazırlayırdı.

Y.Ploşko 1925-ci ildə Bakıdan Varşavaya, sonra isə Fransaya gedib.

Y.Ploşkonun layihələndirdiyi binalar:

1. Nikolayevski-10 (hazırda İstiqlaliyyət) küçəsində yerləşən "İsmailiyə" binası (hazırda burada Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti yerləşir), 1908-1913.

2. Perskaya-6 (hazırda Muxtarov) küçəsində yerləşən Murtuza Muxtarov sarayı (hazırda Səadət Sarayı), 1911-1912.

3. Qorçakovskaya-13 (hazırda H.Z.Tağıyev) küçəsində yerləşən "Yeni Avropa" mehmanxanası, 1910-1913.

4. Telefonnaya-4/6 (hazırda 28 May) küçəsində dördmərtəbəli qoşa yaşayış binaları, 1907/1908-1910.



*Memar Y.Ploşko həyat yoldaşı Səbinə İvanova ilə (1902-ci il).*

5. Şamaxinskaya-12 (hazırda Cəfər Cabbarlı) küçəsində yerləşən Kərbəlayi İsrafil Hacıyevin Sarayı, 1910-1912.

6. Malakanski-47 (hazırda Xaqani) küçəsində yerləşən Ağa Musa Nağıyevin evi, 1912.

7. Milli Park, Neftçilər-36 küçəsində yerləşən "Fenomen" kinosu (Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı), 1908-1910.

8. Birinci Kannitapinska-75 (hazırda Salatın Əsgərova küçəsi), Perskaya döngəsi (hazırda Muxtarov) küçəsində yerləşən Hacı Sultan Əli Məscidi, 1904-1910.

9. Milli Park, Neftçilər-65 küçəsində yerləşən Əmiraslanovlar evi (hazırda onun qarşısında fəvvarə yerləşir), 1907.

10. Torqovaya-93 (hazırda Nizami) küçəsi, həmçinin Qoqol-16, Torqovskaya döngəsində yerləşən yaşayış evləri, 1908-1910.

11. Rılski ailəsinin köhnə evi – 1919-cu ildə Polşa Respublikasının Konsulluq şöbəsinin binası. 1912-ci ildə tikilən bu dörd mərtəbəli bina Polis-11 (hazırki Məmmədəliyev) küçəsində yerləşir. Polşa Respublikasının Azərbaycan Xalq Cümhuriyəti dövründəki Nümayəndəliyinin rəhbəri Stefan Rılski idi.

12. Neoqotik kilsə. Kilsənin tikilməsi üçün vəsaitlər Bakıda yaşayan polyaklar tərəfindən bağışlanılmışdır. 1909-1911-ci illərdə tikilmiş məbəd 1931-ci ildə dağıdılmışdır.

Həmin kilsə indiki Şəhriyar adına Mədəniyyət Mərkəzinin ərazisində tikilmişdi.



# KAZİMİR SKUREVİÇ
## (1866-1950)

Kazimir Skureviç 1894-cü ildə Peterburq Mülki Mühəndislər İnstitutunu bitirmişdir. Y.Qoslavskinin dəvəti ilə 1895-ci ildə Bakıya gəlmiş, 1904-1907-ci illərdə Bakının Baş memarı olmuşdur.

1905-ci il inqilabında fəal iştirak etdiyindən həbs və sürgünə göndəriləcəyindən ehtiyatlanaraq Varşavaya köçmüşdür.

Onun layihəsi ilə hazırlanmış binalar:

1. Krasnovodsk və Merkuryev küçələrinin (haqırda S.Vurğun küçəsi və Zərifə Əliyeva küçəsi) tinindəki Dövlət Bankının binası, 1897-1899.

2. Persidski-13 (hazırda Muxtarov) küçəsindəki Rotşildlərin kontoru (hazırda Azərbaycan Respublika Prokurorluğu), 1897-1899.

3. Olginski-4 küçəsində (hazırda M.Ə.Rəsulzadə küçəsi) H.Z.Tağıyev pasajı (sonradan bina ticarət mərkəzinə çevrildi), 1896.

# KONSTANTİN BORİSOQLEBSKİ

**(1869-?)**

Tanınmış memar Konstantin Borisoqlebski 1869-cu ildə Moskva quberniyasında, zadəgan ailəsində anadan olub. Sankt-Peterburq Mülki Mühəndislər İnstitutunda oxuduqdan sonra Astraxana göndərilib. Sonra fəaliyyətini Yeddisu vilayətində davam etdirərək burada Qazaxıstanın ilk metal körpüsünü (1898) inşa edib. 1896-1902-ci illərdə Yeddisu vilayətinin inşaat idarəsinin memarı olaraq çalışıb.

K.Borisoqlebski 1910-cu ildə Bakıya gəlib. 1910-1914-cü illərdə Bakının Baş memarı olub. Bakıda ictimai istifadə obyektlərinin tikintisinə köməklik göstərib.

İ.Olginskaya-5 (hazırki M.Ə.Rəsulzadə) küçəsində yerləşən "Olginski dükanları" binasını (hazırda Xəzər Dəniz Gəmiçiliyi Qapalı Səhmdar Cəmiyyətinin binası) və Balaxanskaya-61 (hazırda Füzuli küçəsi) və Krasnovodskaya (Səməd Vurğun küçəsi) küçələrinin kəsişməsindəki Kişi gimnaziyası (1911-1913) binasını (keçmişdə 4 nömrəli şəhər xəstəxanasının binası) K.Borisoqlebski layihələşdirib.



# YEVGENİ SKİBİNSKİ
## (1858-1918)

Əsli Şamaxıdan idi. Kiçik yaşlarından Bakıya gəlib. 1886-cı ildə Peterburq Təsviri İncəsənət Akademiyasını bitirib. Bakıda yerli hökumətin Memarlıq şöbəsində çalışan ilk polyak olub. 1896-cı ildən Bakı Texniki məktəbində müəllim işləyib. O, eyni zamanda layihələr də hazırlayırdı. 1900-cü ilə qədər 250-dən çox layihə hazırlamışdı.

Y.Skibinskinin layihələndirdiyi binalar:

1. Bakı Dəmir Yolu Vağzalının binası. Vağzal 28 May metrosunun yanında yerləşir.

2. Persidski-24 küçəsində (hazırda Muxtarov küçəsi, burada Memarlar Evi yerləşir) Ağabala Quliyevin yaşayış evi, 1899-cu il.

*Ədəbiyyat:*

*1. Bakıda polyak məkanları. Polish Places in Baku. (Azərbaycan və ingilis dillərində). Polşa Respublikasının Bakıdakı Səfirliyi. B., 2012.*

# Həbs olunmuş və güllələnmiş polyakların istintaq sənədləri



Лист № 6

К делу № 56

**Анкета арестованного.**

1. Фамилия Ковакевич
2. Имя и отчество Кирилл Фаддеевич
3. Дата рождения: число ..., месяц ... 1884 года рождения
4. Место рождения б/Польша, Люблинская губерния гор. Замостье
5. Местожительство (адрес) г. Степанакерт ул. Степановская
6. Профессия и специальность Колбасник
7. Место службы и должность или род занятий Колбасный завод пом. мастера (указать без сокращений, название предприятия или учреждения или характер производства)
8. Паспорт Выдан паспортным отделом УРКМ (когда и каким органом выдан, № и категория, где прописан) г. Микоян-Шахар Сев. Кавказ
9. Социальное происхождение рабочий (род занятий родителей и их имущественное положение)
10. Социальное положение (род занятий и имуществен. положение арестованного)
    а) до революции рабочий
    б) после революции рабочий
11. Образование (общее и специальное) самоучка малограм.
12. Партийность (в прошлом и настоящем) б/партийн.

*Polyak Kirill Novakeyevin*
*(1884-cü il təvəllüdlü) istintaq sənədi.*
*Dekabr, 1938-1939-cu illər.*


...йджанская Советская Социалист. Республика
...родный Комиссариат Внутренних Дел 5

УНКВД в НКАО. Отделение Аз. НКВД

ОРДЕР № 16

...ан 31. декабря 1939 г.

Действителен 2 суток.

...нику УНКВД НКВД тов.

...учается произвести обыск и арест гр.

...вакеевича Кирилла Францевича

...ющ. работающ. на коньяч... заводе Олим. в гор. Степанакерте

... органам Советской Власти и гражда-
...Р надлежит оказывать законное содей-
...ед'явителю ордера, при исполнении им
...нных на него поручений

Начальник УНКВД в НКАО ст. лейт. ГБ
У. Каспаров

83

*Polyak Kirill Novakeyevin*
*(1884-cü il təvəllüdlü) istintaq sənədi.*
*Dekabr, 1938-1939-cu illər.*



Форма № 2

Пол Муж

...ия Новакоевич

...ство

...ождения 1884 Место рождения

Правая рука

| 1. Большой | 2. Указательный | 3. Средний | 4. Безымянный | 5. Мизинец |
|---|---|---|---|---|

Левая рука

| 6. Большой | 7. Указательный | 8. Средний | 9. Безымянный | 10. Мизинец |
|---|---|---|---|---|

Контрольный оттиск

| Левой рукой | Правой рукой |
|---|---|

заполнена 5 19 г. в

(указать где и в каком органе НКВД)

составил

(должность и подпись)

...сь зарегистрированного

Т. им. Воровского. Н. 10635

*Polyak Kirill Novakeyevin*
*(1884-cü il təvəllüdlü) istintaq sənədi.*
*Dekabr, 1938-1939-cu illər.*
*İstintaq prosesində ondan götürülmüş barmaq izləri.*


Форма № 2

Пол муж.

Масевич

Юлий

Цезаревич

рождения 1888 г. Место рождения г. Кировабад

Правая рука

| 1. Большой | 2. Указательный | 3. Средний | 4. Безымянный | 5. Мизинец |
|---|---|---|---|---|
| | | | | |

Левая рука

| Большой | 7. Указательный | 8. Средний | 9. Безымянный | 10. Мизинец |
|---|---|---|---|---|
| | | | | |

Контрольный оттиск

| Левой рукой | Правой рукой |
|---|---|
| | |

Заполнена 25 октября 1941 г. в

Составил

зарегистрированного Масевич Ю.Ц.

должны быть четко заполнены:

*Yuli Moseviç Çezareviçə məxsus istintaq sənədi.*
*Sənəddə istintaq prosesində götürülmüş*
*Y. M.Çezareviçə məxsus barmaq izləri var.*



АНКЕТА АРЕСТОВАННОГО

| ВОПРОСЫ: | ОТВЕТЫ: |
| --- | --- |
| Фамилия | Лясновский |
| Имя и отчество | Вацлав Иосифович. |
| Год и место рождения | Родился в 1917 году Белостоцкая область (край) Кнышинский район, село Зубове гор. |
| Постоянное местожительство (адрес) | Белостоцкая область. Кнышинский р-н. село Зубове |
| Профессия и специальность | Не имеет |
| Последнее место службы и должность или род занятий | а) учреждение У своего хозяйства Предприятие Единоличник. б) Должность в) Звание г) В систему какого Наркомата, или другого руководящего органа входит учреждение (предприятие) Единоличник — д) Если не работает — когда уволен 194 г. |
| Партийная принадлежность | а) в прошлом Не состоял. б) в настоящее время Не состоит билет № Не имеет. |
| Национальность | Поляк |
| Гражданство (при отсутствии паспорта, указать какой документ удостоверяет гражданство) | а) гражд. (подд.) СССР. б) паспорт № кем выдан Не имеет. |

*Məhkum anketi polyak Vyaçeslav İosifoviç Lyakovskiyə məxsusdur.*
*O, 1917-ci ildə Belostotskaya vilayətində anadan olub.*
*İstintaq zamanı onun sovet rejiminə qarşı təxribat əməlləri haqqında məlumatlar əldə olunub.*


С.С.С.Р.
Н.К.В.Д.
Заинвентаризовано в 19 г.
Дело подлежит возврату в архив КГБ Азербайджанской ССР
АЗЕРБАЙДЖАНСКОЙ С.С.Р.
УЧТЕНО в 1962 году
ДЕЛО № 8722
по обв. Чаплевского Карла Карловича в преступлении предусмотренного ст. ст. 68 и 72 УК Аз ССР
Арх № ПЕ 14829
ПР-3147
ТОМ №
Начато „26" ноября 1937 г.
Окончено „16" декабря 1937 г.
Количество томов

*İstintaq sənədi Karl Karloviç Çaplevskiyə məxsusdur.*
*O, Cinayət Məcəlləsinin 68-ci və 78-ci maddələri üzrə ittiham olunur. Bunlar ən ağır cinayət maddələridir.*
*Bu maddələr əsasında ona ölüm hökmü çıxarılıb.*


С. С. С. Р.
Н. К. В. Д.
ДОРОЖНО-ТРАНСПОРТНЫЙ ОТДЕЛ
Закавказских ж. д.
...нтаризовано в 1940 г.
669543
ДЕЛО № 1115
По обвинению гр-на
Живвановского
Антона Францевича
по ст. 72 УК ...
УЧТЕНО в 1962 ГОДУ
ПР 39862
ПР-39862
ТОМ №
ПС 19204
НАЧАТО „5" февраля 19
ОКОНЧЕНО „26" февраля 19
Арх-56869
КОЛИЧЕСТВО ТОМОВ

*Anton Franseviç Jivanetskinin sənədi.*
*1887-ci ildə anadan olub.*



6

С. С. С. Р.

Н.К.В.Д.

Арх 19131

АЗЕРБАЙДЖАНСКОЙ С.С.Р.

„Архив 19131

ДЕЛО №. 26171

По обв. Дроздовского Георгия Брониславовича по ст. ст. 21-64, 73 УК АССР

PR-3310

Арх 19131

ТОМ №

24360

Начато „21" июля 1938 г.

Окончено „25" января 1940 г.

УЧТЕНО

Количество томов

*Georgi Bronislavoviç Drozdovskinin sənədi.*
*Onun 1 yanvar 1915-ci ildə Odessa şəhərində anadan olması və Xəzər gəmiçiliyində işləməsi haqqında məlumat var. O, Cinayət Məcəlləsinin 73-cü və 21-64-cü maddələri ilə ittiham olunur.*


ƏRBAJÇAN SOVET SOSIALIST RESPUBLIQASЬ
XƏLQ DAXILI IŞLƏR QOMISSARLЬQЬ
АЗЕРБАЙДЖАНСКАЯ СОВЕТСКАЯ СОЦИАЛИСТИЧЕСКАЯ РЕСПУБЛИКА
НАРОДНЫЙ КОМИССАРИАТ ВНУТРЕННИХ ДЕЛ

ПРОТОКОЛ ОБЫСКА

на основании ордера УГБ НКВД Азербайджана за № 4425 произвел обыск у гр. Лотоцкой Я. Л. проживающего в ... дом № 188 кв. №

При производстве обыска присутствовали гр. гр.

Согласно полученных указаний задержаны гр. гр. Лотоцкая

Взято для представления в НКВД следующее:

ОПИСЬ
ВЕЩЕЙ, ЦЕННОСТЕЙ И ДОКУМЕНТОВ

| Наименование взятого | Количество | Качественное состояние |
|---|---|---|
| 2 | 3 | 4 |

*Sənəd Yanina Leonardovna Lotoçskayaya məxsusdur. İstintaq arayışında qeyd olunur ki, Yanina Lotoçskaya 1901-ci ildə Litvanın Kovno şəhərində anadan olub. 1919-cu ildən etibarən Sovet hakimiyyətinə qarşı mübarizə aparıb. Casusluqda və daim öz litvalı qohumları ilə yazışmalarda şübhəli bilinib.*


...обвиняемой Лотоцкой Янины Леонардовны 7 Марта 1938 г.

Вопрос: Назовите Ваши связи и знакомства?

Ответ: Моими знакомыми являются: Мартиросов Есофий – работник эксплоатационного отдела Азнефтекомбината, с ним познакомилась в 1937 году в Баку, он неоднократно раз меня посещал, находилась с ним в близких отношениях.
Гусман Моисей Михайлович – инженер строитель работает в НКВД, познакомилась с ним в городе Тбилиси в 1936 году, с Гусманом были дружеские взаимоотношения. Гуревич Григорий Ефимович по профессии врач, его жена Сарра Савельевна, знакома с ними с 1924 года по гор. Батуми, посещала их. Александрович Степан Францевич, работает в Бакводоснабтресте, его жена Гуревич (девичья фамилия) Любов Ефимовна, с ними знакома с 1925 по гор. Батуми, с Любовью у меня приятельские взаимоотношения, посещали друг друга.
Есафиевский Анатолий работает в Бакводоснабтресте, его бывшая жена Тамара, познакомилась с ними в 1936 году




*Sənəd 21 fevral 1938-ci il tarixinə aiddir. Yanina Lotoçskayanın casusluq fəaliyyəti ilə məşğul olması qeyd edilir.*
*Yanina Lotoçskayaya aid istintaq protokolu. Yanina Lotoçskayanın həbsxanadakı foto şəkli.*



134 - 22 11

ПРОТОКОЛ ДОПРОСА

ОБВИНЯЕМОГО ДРОЗДОВСКОГО ГЕОРГИЯ БРОНИСЛАВОВИЧА

От I Июля 1938г.

ДРОЗДОВСКИЙ ГЕОРГИЙ БРОНИСЛАВОВИЧ
1915г.рожден.,урожен.г.Одессы,
поляк,гр.СССР,старший моторист
т/х "Осетин" Каспийского пароходства,холост,член ВЛКСМ с 1932г.
не судивш.

ВОПРОС: Вы обвиняетесь в принадлежности к антисоветской право-троцкистской организации,существовавшей в Каспийском пароходстве. Признаете себя виновным в этом?

ОТВЕТ: Да,признаю,я являлся участником антисоветской право-троцкистской организации молодежи,существовавшей в Каспийском пароходстве,в которую был вовлечен бывшим Пом. Нач. Политотдела Каспара по комсомолу - ЗЕНИНЫМ Федором в конце Мая или в начале Июня 1937 года.

ВОПРОС: При каких обстоятельствах?

ОТВЕТ: Примерно в Августе месяце 1936 года,я как комсорг п/х. "Дзержинский" был вызван в политотдел Каспара на совещание комсоргов судов. На этом совещании выступили многие комсорги, с критикой на плохо поставленную комсомольскую работу на пароходах,также выступил и я. Я указал на то,что бытовые условия молодежи на судах выпали из глаз зрения политотдела: нет плановости в проведении полит.учебы,отсутствует руководство вообще комсомольскими организациями,отсутствует необходимое куль-

*İstintaq sənədi. 21 iyul 1938 – 25 yanvar 1940 tarixlərinə aiddir. G.Drozdovski sağçı-trotskiçi təşkilata üzvlükdə ittiham edilir. Qeyd edilir ki, 1937-ci ilin əvvəllrindən o, həmin təşkilatla əlaqədə olub.*


С.С.С.Р.

Н.К.В.Д.

Заинвентаризовано в 1940 г.

АЗЕРБАЙДЖАНСКОЙ С.С.Р.

УЧТЕНО в 196 ГОДУ

ДЕЛО №. 8134 56853

По

обвин. Ковшевич-Матусевич Мари Евгеньевну, в преступлениях предусмотренных ст. 68 УК АзССР.

ПР 34808 673650

ТОМ № первый

Начато „15" декабря 1937 г.

Окончено „7" января 1938 г.

Арх № ПК 14844

Количество томов один

*M.Y.Kavşeviç-Matuseviçə aid istintaq sənədi*


ХРАНИТЬ ВЕЧ

ЦЕНТРАЛЬНЫЙ АРХИВ
Министерства Внутренних Дел Союза ССР

Год производства 19

СЛЕДСТВЕННОЕ ДЕЛО №

по обвинению Стацкевич Ольгерд Константинович. ст 68, 72

ПР 34481

Полученное из архива дело должно быть возвращено через 10 дней с момента получения его. Передача полученных из архива дел в другие отделы или органы производится исключительно через 1 Спецотдел МВД СССР

УЧТЕНО в 1962 году

Арх. № 623487

ПС-3826

Том № 1

Переплетено в 19 г.

Дело в 1 томах

*Sənəd Olqerd Konstantinoviç Statskeviçə məxsusdur. İstintaq arayışında qeyd olunur ki, Olqerd 1913-cü ildə anadan olub, milliyyətcə polyakdır. Onun atası da siyasi görüşlərinə görə həbs olunub.*



СТАСКЕВИЧ Олег Константинович, 1912 г.р., поляк, гр. СССР, в ВКП(б) не состоял, механик мебельной фабрики "Кр. Октябрь", проживает по Пролетарской ул. № 154.

Из имеющихся в 3 Отделе УГБ НКВД АзССР материалов усматривается, что СТАСКЕВИЧ Олег Константинович является антисоветски настроенной личностью, ведет контрреволюционную агитацию, группирует вокруг себя антисоветски настроенных поляков. Отец его арестован за к-р националистическую деятельность. Подозрителен по шпионажу.

